# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimat mərasimi olub



4

## Cənubi Qafqazın əsas energetika mərkəzi




2

**Prezident İlham Əliyev: "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır"**


SƏS
№ 110 (7278)
25 iyun 2025-ci il.
Qiymәti 60 qәpik


# Rusiyanın İrəvan dalanı



5

## Milli mətbuat 150: Zərdabi aynasında ləkə olanlar



11

## Gələn həftə Azərbaycanda sosial müavinətlər və təqaüdlər artırılacaq



16

## Fransada neonasizm hakimiyyətin əsas silahına çevrilir



14

## Evlilik yaşı niyə müxtəlif ölkələrdə fərqlidir?



6

## Erkən evliliyə, yoxsa erkən fahişəliyə qarşı mübarizə?



13

# Cənubi Qafqazın əsas energetika mərkəzi

## Prezident İlham Əliyev: "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır"

***Azərbaycan üçün mühüm tərəfdaşlardan birinə çevrilən İtaliya ilə ölkəmiz arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğu dostluq münasibətlərini şərtləndirən amildir. Mükəmməl hüquqi bazaya malik ikitərəfli münasibətlər çoxşaxəlidir. Əlbəttə ki, ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəldib. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi münasibətlərin yeni mərhələdə inkişafının təzahürüdür. Bu dövlətlərarası əlaqələrin həqiqətən də, nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Söhbət zamanı dövlətimizin başçısının Adolfo Urso ilə görüşləri məmnunluqla xatırlanıb. Prezident İlham Əliyev Adolfo Ursoya "8 Noyabr" Elektrik Stansiyasının açılışında iştirakına görə minnətdarlığını bildirib, gələcəkdə də birgə layihələrin həyata keçiriləcəyinə ümidvarlığını ifadə edibdir.

Qonaq İtaliyanın "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakını ölkələrimiz arasında dostluğun və uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirib. Azərbaycana dəfələrlə səfər etdiyini xatırlayan Adolfo Urso bu tədbirdə iştirakdan məmnunluğunu bildirib. O, 2020-ci ildə Gəncə və Ağdam şəhərlərinə səfərinə toxunub.

Dövlətimizin başçısı Adolfo Ursonun işğaldan azad edilmiş torpaqlarımızda Avropa ölkəsini təmsil edən ilk xarici yüksəksəviyyəli şəxslərdən biri olduğunu vurğulayıb və buna görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və orada artıq 3 beynəlxalq hava limanının istifadəyə verildiyini diqqətə çatdırıb. İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərir.

İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində İtaliya dost ölkə olaraq öz töhfəsini verir. Belə ki, İtaliya şirkətləri işğaldan azad olunmuş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib. Azərbaycanın Memorial və Zəfər muzeyləri təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib. İtaliyanın daha bir şirkəti Şuşada yeni məscidin layihəsini dizayn edib. Görülən işlər və layihələr bu əlaqələrin davamlığının təzahürüdür.

Söhbət zamanı münasibətlərimizin strateji xarakter daşıdığı bildirilib, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluq ifadə olunub. Azərbaycan-İtaliya əməkdaşlığının daha da genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunulub.

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi bildirilib, enerji, o cümlədən bərpaolunan enerji, metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində iştirakı qeyd edilib. "AzərEnerji" ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev iyunun 24-də Mingəçevirdə Çinin "Dongfang Electric İnternational Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul edib. Görüşdə "Dongfang Electric İnternational Corporation" şirkətinin "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakının roluna toxunuldu, Azərbaycanla Çinin bu şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Mingəçevir şəhərində tikilən "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) birinci bloku 1981-ci ildə istismara verilib. Bu stansiya sovet dövründə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılırdı. Məhz bu elektrik stansiyası 1990-cı illərin əvvəlində Sovet İttifaqının dağılması ərəfəsində müstəqil Azərbaycanın enerji tələbatının böyük hissəsini ödəyirdi. Lakin keçid dövründə elektrik stansiyasına baxımsız yanaşma və istismar müddətinin başa çatması əlavə problemlər ortaya çıxarırdı. Buna görə də Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, hər birinin gücü 300 meqavat olan 8 bloklu "Azərbaycan" İstilik Elektrik Stansiyası 2020-ci ildə tam yenidən qurularaq istismara verilib. Bununla da stansiya dayanmaq təhlükəsindən xilas edilib, ömrü ən azı 20 il uzadılıb, etibarlılıq, dayanıqlılıq, səmərəlilik və təhlükəsizlik təmin edilib, 620 MVt-dan artıq "itirilmiş" güc bərpa olunub.



### "HAZIRDA BİZİM ELEKTRİK ENERJİSİNİN 40 FAİZİNDƏN ÇOXU MİNGƏÇEVİRDƏ İSTEHSAL OLUNUR"

"8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində çıxışı zamanı bildirib. Dövlət başçımız qeyd edib ki, 1880 meqavat gücündə bu stansiya bizim enerji potensialımızı təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək: "Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir". Mingəçevir 1970-ci illərdə Azərbaycan energetika sektorunun mərkəzi rolunu oynamışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının təməli qoyulmuşdur. Ulu Öndər Heydər Əliyevin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilmişdir.

Lakin keçid dövründə elektrik stansiyasına baxımsız yanaşma və istismar müddətinin başa çatması əlavə problemlər ortaya çıxarırdı.

"O zaman hələ sovet dövründə bu stansiya Qafqazın önəmli energetika mərkəzlərindən birinə çevrilmişdir. Təbii olaraq müstəqilliyin ilk illərində bizdə enerji qıtlığı yaranmışdır. Orta və yaşlı nəslin nümayəndələri o illəri yaxşı xatırlayırlar ki, o vaxt hətta axşam saat 12-də televiziya verilişləri də dayandırılırdı. Çünki energetika sistemimiz lazım olan həcmdə elektrik enerjisini istehsal edə bilmirdi.






Ardı Səh. 3

Əvvəli Səh. 2

# Cənubi Qafqazın əsas energetika mərkəzi

## Prezident İlham Əliyev: "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır"

Həm yanacaq nöqteyi-nəzərindən çətinliklər var idi, həm də enerji sistemimiz tam köhnəlmişdi. Yalnız Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Mingəçevir stansiyası hesabına müəyyən dərəcədə fasilələrlə olsa belə, insanlara və müəssisələrə elektrik enerjisi verilirdi. Yəni, Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı, əlbəttə ki, bu gün də bizə əldə



edilmiş uğurlara nail olmaq üçün imkan yaradır", - deyə Azərbaycan Prezidenti çıxışında diqqətə çatdırıb.

Qeyd edək ki, 2020-ci il oktyabrın 4-də stansiyanın ərazisinə böyük dağıdıcı qüvvəyə malik "Smerç" reaktiv yaylım atəşli raket atılıb. Raket 6-cı və 7-ci enerji bloklarının arasındakı sahəyə düşüb. Bundan başqa, 2020-ci il oktyabrın 11-də ikinci dəfə atılan raket isə İdarəetmə Mərkəzinin yaxınlığına düşüb.







### "STANSİYANIN ƏRSƏYƏ GƏLMƏSİNDƏ İTALİYA VƏ ÇİN ŞİRKƏTLƏRİNİN BÖYÜK PAYI VAR"

Müvafiq müdafiə sistemlərinin qabaqlayıcı tədbirləri nəticəsində atılmış raketlər zərərsizləşdirilib. "Biz son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulmuşdur, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılmışdır. Yadınızdadır, burada baş vermiş



qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik", - deyən Prezident bildirib ki, 2018-ci ildə "Azərbaycan" İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də - düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir: "Hazırda "Azərbaycan" Elektrik



Stansiyasının generasiya gücü 1800 meqavat, "8 Noyabr" Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir. Dövlət başçımız bu layihənin qısa müddət ərzində icra edilməsini rekord nəticə kimi dəyərləndirib: "Təxminən 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir - bəlkə də üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, yeddi ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı.

Mən xüsusilə bu gün burada iştirak edən İtaliyadan və Çindən olan qonaqları salamlamaq istəyirəm. Bu stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı var".

İki ölkə arasında strateji iqtisadi tərəfdaşlıq, ilk növbədə, enerji sektorunu əhatə edir. Azərbaycan İtaliyanın əsas xam neft, təbii qaz təchizatçılarından biridir. Uzun illərdir ki, Azərbaycan İtaliyanı neftlə təchiz edən bir nömrəli ölkədir. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəməri (TAP) layihəsi İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən, eyni zamanda, İtaliyanın qaz bazarında qiymətlərin sabit saxlanılmasında üstünlüklər təmin edən vacib amildir. Qeyd edək ki, Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir. Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir.

Ölkəmizin iqtisadi-maliyyə gücünün artmasına, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin bütün seqmentləri artıq fəaliyyətdədir. Cənub Qaz Dəhlizinin icrası zamanı Azərbaycan boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri,



aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq əlaqələri qurub. Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın oynadığı rol Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səylərimiz baxımından mühüm əhəmiyyət daşıyır. Əlbəttə ki, Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın oynadığı rol ölkəmizin Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səyləri baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan İtaliya ilə iqtisadi əlaqələrinə böyük diqqət yetirir və onların inkişafında və güclənməsində maraqlıdır. İki ölkənin təhsil müəssisələri arasında da əlaqələr genişlənir. Əbəs deyil ki, bu gün İtaliyanın müxtəlif universitetlərində mindən çox azərbaycanlı tələbə təhsil alır. Ölkələrimiz arasında eyni zamanda, mədəniyyət, elm, təhsil, humanitar sahələrdə önəmli mübadilələrin və layihələrin həyata keçirilməsi Azərbaycan və İtaliya arasında salınan körpünün daha da möhkəmləndirir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir.

**Zümrüd BAYRAMOVA**

# "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimat mərasimi olub

***İyunun 24-də "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, alimlər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.***



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, xarici işlər nazirinin müavini Elnur Məmmədov, Baş prokurorun müavini Elmar Camalov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini Qaya Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü professor Gülçöhrə Məmmədova, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Nazim İsmayılov və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbirdə çıxış edərək nəşrin mövzusunun əhəmiyyəti, məqsədi və aktuallığı barədə fikirlərini bölüşüblər.





Qeyd olunub ki, Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımızın beynəlxalq proses çərçivəsində təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geriyə qayıtmaları, onların fundamental hüquqlarının bərpa və təmin edilməsi ölkəmizin prioritetləri arasındadır. Müxtəlif dövrlərdə soydaşlarımıza qarşı həyata keçirilən deportasiya nəticəsində onlara məxsus məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib. Qeyd edilən deportasiya siyasətinin son dalğası nəticəsində 300 minə yaxın insan öz dədə-baba torpaqlarından məcburi şəkildə çıxarılıb. Nəticədə Ermənistan regionda monoetnik dövlətə çevrilib.

Vurğulanıb ki, Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı beynəlxalq hüquqa zidd əməllərin cəzasız qalmasından ilhamlanan Ermənistan 30 ildən çox müddətə Azərbaycan torpaqlarını işğal altında saxlayıb. Ermənilər tərəfindən azərbaycanlılara qarşı yalnız etnik təmizləmə siyasəti həyata keçirilməyib, eyni zamanda, soydaşlarımıza məxsus maddi-mədəni irsin yer üzündən tamamilə silinməsinə yönəlik vandalizm aktları törədilib.



Bildirilib ki, qəbiristanlıqlar bir xalqın keçmişi, inancı və kollektiv yaddaşıdır. Ona görə də qəbiristanlıqları dağıtmaq həmin xalqın izlərini coğrafiyadan silmək cəhdidir. Bu, həm də hər kəsin bildiyi kimi beynəlxalq humanitar hüququn və insan hüquqlarının ciddi şəkildə pozulmasıdır.

Natiqlər qeyd ediblər ki, Ermənistan dünyada nadir monoetnik və monokonfessional bir cəmiyyət strukturuna malik dövlətdir. Bu da təbii olaraq orada başqa mədəniyyətə nifrət hissini alovlandırıb və hətta dövlət təbliğatının bir formasına çevirib. Bu əməllər təkcə tarixi ədalətin deyil, beynəlxalq hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının, UNESCO konvensiyalarının və digər mühüm sənədlərin də kobud şəkildə pozulmasıdır. Tədbirdə, həmçinin Qərbi Azərbaycanla bağlı videoçarx nümayiş olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların tarixən yaratdığı dövlətçilik ənənələri, maddi və qeyri-maddi mədəni irsi, məruz qaldıqları tarixi ədalətsizliklər və cinayətlər, itirdikləri maddi-mənəvi sərvətlər haqqında davamlı tədqiqatlar aparılmaqdadır. Bu istiqamətdə müasir elmi yanaşmalara uyğun yeni fundamental araşdırma - "Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyası nəşr edilməyə başlanılıb. "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi seriyanın ilk nəşridir və Azərbaycan, ingilis, rus dillərində nəfis tərtibatla çap edilib.

Seriyanın 5 hesabatdan ibarət olması nəzərdə tutulub. I, II, III hesabatlarda Qərbi Azərbaycanda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılan azərbaycanlılara məxsus qəbiristanlıqlar, IV hesabatda məscidlər, V hesabatda isə pirlər və türbələr öz əksini tapacaq.

Kitabın I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində mövcud olmuş, indi isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir.

Tədqiqat zamanı 1890-1991-ci illərdə Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib və nəşr edilən, uzun müddət məxfilik statusunda saxlanılan müxtəlif ölçülü 250-dən çox topoqrafik xəritədən, ötən əsrə və müasir dövrə aid Amerika Birləşmiş Ştatlarının kəşfiyyat peyklərinin təsvirlərindən, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycan arxivlərində saxlanılan sənədlərdən, Almaniya, ABŞ, Rusiya kitabxanalarındakı mənbələrdən, foto-video materiallardan, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların xatirələrindən istifadə edilib.



Araşdırmada istinad edilən xəritə kolleksiyaları Berlin Humboldt Universitetinin Coğrafiya Departamentindən, Greifsvald Universitetinin Coğrafiya və Geologiya İnstitutundan, İndiana Universitetinin Elmi Kitabxana Fondundan, ABŞ Milli Konqres Kitabxanasından, Rusiya Coğrafiya Cəmiyyətinin Tarixi kartoqrafiya bölməsindən toplanılıb. İki hissədən ibarət olan kitabın birinci hissəsində hesabatın məqsədi və tədqiqatın predmeti müəyyən edilir, tədqiqatın metodologiyasından bəhs olunur. İkinci hissədə isə Qərbi Azərbaycanın hər bir rayonu üzrə qruplaşdırılmış qəbiristanlıqların yerləşdiyi kəndlərin tarixi inkişafı, demoqrafik göstəriciləri, kəndlə bağlı toponimik və inzibati dəyişikliklər, əhalinin köç və deportasiya prosesi, qəbiristanlıq və digər mədəni irs obyektlərinin mövcud vəziyyəti sistemli şəkildə təqdim edilir.



# İqtisadi Şuranın növbəti iclası keçirilib



Dünən İqtisadi Şuranın növbəti iclası keçirilib. Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanından irəli gələrək Hökumətə verilən tapşırıqların icra vəziyyəti və görülmüş işlər, o cümlədən sahibkarların dövlət qurumlarına müraciətinin elektronlaşması və xidmətlərin rəqəmsallaşması, "Mygov Biznes" altsisteminin yaradılması və rəqəmsallaşmayan dövlət xidmətlərinin "ASAN xidmət"də göstərilməsi, dövlət xidmətlərinin və alınan ödənişlərin optimallaşdırılması, xidmət haqlarının məbləğinə və hüquqi əsasına baxılması və digər cari məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi dinlənilib.

Sonra ədliyyə naziri Fərid Əhmədov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn tapşırıqlarla bağlı çıxış ediblər.

Təqdim olunan iqtisadi gündəliyə dair İqtisadi Şuranın üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# YAP Gənclər Birliyinin iclası keçirilib



İyunun 24-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib.

İclasın gündəliyinə əsasən 2025-ci ilin yanvar-may ayları ərzində YAP Gənclər Birliyinin fəaliyyəti ətrafında fikir mübadiləsi aparılıb. YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, 2025-ci ilin ilk beş ayında Birliyin fəaliyyəti partiyanın Mərkəzi Aparatının müəyyən etdiyi prioritetlərə uyğun təşkil olunub. O, gənclərin ictimai-siyasi fəallığının artırılması, intellektual və yaradıcı təşəbbüslərinin dəstəklənməsi məqsədilə müxtəlif layihələrin reallaşdırıldığını bildirib.

İclas zamanı 2025-ci ilin ikinci yarısında həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər Planı ətrafında müzakirələr aparılıb. Ali təhsil müəssisələrində fəaliyyət göstərən "YENİ Klub"ların əhatə dairəsinin genişləndirilməsi, gənclərin liderlik və təşəbbüskarlıq bacarıqlarının inkişafı, eləcə də rəqəmsal və sosial mövzulara dair maarifləndirici layihələrin təşkili ilə bağlı təkliflər irəli sürülüb və müvafiq qərarlar qəbul edilib.

# Rusiyanın İrəvan dalanı



Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan, "iki ölkə arasında münasibətlərin normallaşdırılmasına dair prezident Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparmaq" məqsədi ilə Türkiyəyə ilk işgüzar səfərini edib. Səfər Ankaranın təşəbbüsü və hazırlığı ilə həyata keçirilib. Bəzi türk mənbələrinə görə, tərəflər "sonradan müxtəlif ikitərəfli müqavilələrin hazırlanması və imzalanmasına keçidlə" diplomatik münasibətləri bərpa etməyi planlaşdırıblar. Vaxtilə Ərdoğan bəyan etmişdi ki, "onun Paşinyanla şəxsi görüşlərindən biri mütləq iki ölkə arasında səfir mübadiləsi ilə yekunlaşacaq". Görünür, Türkiyə Paşinyanın səfərinə müəyyən motivasiyalı məna verən hansısa "qeyri-standart erməni aksiyası" hazırlayırdı. Amma görünür, bunu Azərbaycan prezidenti İlham Əliyev Paşinyanın gəlişindən əvvəl Ankaraya "gözlənilməz" səfəri zamanı pozub. Baxmayaraq ki, bir çox erməni mediası bunu "tarixi" adlandırdı, Türkiyə mətbuatı isə Ərdoğanın Paşinyanla İstanbulda apardığı danışıqları işıqlandıraraq, adi diplomatik xronika kimi təqdim edib.

Məsələ burasındadır ki, Bakının əvvəllər itirdiyi rayonlar üzərində nəzarəti bərpa etməsi nəticəsində İkinci Qarabağ müharibəsindən sonra İrəvan hesab edir ki, Türkiyə ilə münasibətlərin normallaşması yolunda obyektiv maneələr aradan qalxıb və Azərbaycanla sülh müqaviləsi müstəqil, ayrıca məsələdir və onu ikitərəfli dialoqda həll etmək olar. Lakin fürsət pəncərəsi deyilən, eləcə də bir sıra regional məsələlərdə Türkiyə ilə Azərbaycan arasında ehtimal edilən fikir ayrılıqları yalnız erməni siyasətçilərinin təsəvvüründə mövcuddur. Türkiyə Ermənistanla münasibətlərin normallaşdırılmasını İrəvan və Bakı arasında nizamlanma ilə əlaqələndirməkdə davam edir. Lakin onlar arasında hələ də prosesin başa çatmasına mane olan fikir ayrılıqları var.

Birincisi, Bakının tələblərinə görə, İrəvan "Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə iddiaları" aradan qaldırmaq üçün Konstitusiyaya dəyişiklik etməlidir. İkincisi, Bakı 1992-ci ildə Qarabağ münaqişəsinin həlli üçün yaradılmış və Rusiya, ABŞ və Fransanın sədrliyi ilə fəaliyyət göstərən ATƏT-in Minsk qrupunun rəsmən ləğvini tələb edir. Ola bilsin ki, İlham Əliyev Ankara-İrəvan sxemi üzrə müsbət dialoqun ABŞ-da erməni diasporunun təsirinin güclənməsinə və 2009-cu ilin payızında, Türkiyə ilə Ermənistanın Azərbaycanın arxasınca münasibətlərin normallaşmasına dair Sürix protokollarını imzaladığı hadisələrin təkrarlanmasına gətirib çıxaracağından ehtiyat edir. Təsadüfi deyil ki, Ankara və Bakı vəziyyəti elə təqdim edir ki, Ermənistan Türkiyə ilə münasibətləri normallaşdırmaqda daha çox maraqlıdır, onlar özləri Zəngəzur dəhlizinin yaradılması layihəsində fəal lobbiçilik edirlər və buna İrəvanla münasibətləri normallaşdırmadan nail olmaq mümkün deyil. Əldə olan məlumata görə, Türkiyədə Ermənistanla münasibətlərin perspektivləri ilə bağlı qapalı müzakirə aparılır. Türkiyəli ekspertlər, onların fikrincə, həlledici sayıla bilən aşağıdakı səbəbləri müəyyənləşdirirlər.

Onlardan biri: Türkiyə Ermənistanla münasibətləri bərpa edərək Cənubi Qafqazda təsirini gücləndirməyə çalışır. Sürix protokollarının bərpası lehinə səslər eşidilir. Əks halda, Türkiyənin "Hürriyyət" nəşrinə görə, yeni Ankara-İrəvan danışıqları zamanı hər şey "sıfırdan" başlamalı olacaq. Amma indiyə qədər İstanbulda Ərdoğan-Paşinyan görüşü praktikdən daha çox simvolik xarakter daşıyıb. Tərəflər əvvəllər, məsələn, üçüncü ölkə vətəndaşları üçün sərhədin açılması və sərhəddəki körpünün birgə yenidən qurulması barədə razılığa gəliblər. Amma işlər sözdən o yana getməyib.

## Qurşaqdan aşağı zərbə?

Avropa Birliyinə qoşulmaq İrəvanı yeni qaydalarla yaşamağa məcbur edəcək, əsas odur ki, ruslar yaxınlıqda olmasın. Ermənistan səmasını Rusiyanın üzünə bağlaya bilər. Bunu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda (SPİEF) Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib. Səbəb təkcə Rusiya ilə Ermənistan arasında münasibətlərin pisləşməsi və Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsindən faktiki olaraq çıxması deyil. Baş nazirin müavini Overçukun əsas arqumenti Ermənistanın Avropa Birliyinə üzv olmaq üçün müraciət etməsidir. Bu ilin aprelində Ermənistan prezidenti Vaaqn Xaçaturyan "Ermənistan Respublikasının Avropa İttifaqına daxil olması prosesinin başlanması haqqında" qanunu imzalayıb. Lakin Ermənistan bu məsələdə də yarıtmaz mövqe tutub. Xarici İşlər Nazirliyi bəyan edib ki, bu qanun "Aİ-yə üzvlük üçün müraciət deyil, Ermənistan vətəndaşlarının Aİ ilə tərəfdaşlığını yeni səviyyəyə qaldırmaq istəyini əks etdirir". Lakin Aİ-yə qoşulmaq avtomatik olaraq onun tələb və qaydalarına qoşulmaq demək olacaq. Bu gün Avropa İttifaqının Rusiya ilə hava əlaqəsi yoxdur və Aİ ölkələrinin səması Rusiya təyyarələri üçün bağlıdır. "Ermənistan da səmalarını bağlayacaq? Əgər siz Avropa Birliyinə daxil olsanız, bəli, çünki Brüssel sizə göyləri bağla deyəcək, sən də səmanı bağlayacaqsan, başqa çarənin qalmayacaq. Bəs nə?", Baş nazirin müavini Overçuk bildirib.

Aleksey Overçukun açıqlaması təsadüfi deyildi. Rusiya və Ermənistan diplomatik qalmaqalın astanasındadır. Münaqişəyə səbəb Ermənistanda dövlət çevrilişi hazırlamaqda ittiham olunan erməni əsilli rusiyalı iş adamı, "Taşir" Şirkətlər Qrupunun prezidenti Samvel Karapetyanın həbsi olub. Rusiyalı oliqarxın həbsi Rusiya siyasi isteblişmenti tərəfindən sərt tənqid edilib. Bu və ya digər şəkildə, hər zaman bir-birinə hörmətlə yanaşan iki keçmiş sovet respublikası arasında münasibətlər




çətin günlərdən keçir və Ermənistanın hava məkanını Rusiyanın üzünə bağlasa, nə baş verəcəyini düşünməyin vaxtı çatıb.

Bu, doğrudanmı, yüzlərlə reysin ləğvinə və AB ölkələri səmalarını üzümüzə bağladıqdan sonra artıq artmış Rusiya təyyarələrinin uçuş müddətinin artmasına səbəb olacaqmı? Ermənistan kiçik ölkədir, onun ətrafında soldan da, sağdan da uçmaq olar, ən yaxşı variant ətrafından uçmaqdır. Ermənistan dağlıq ölkədir və hər halda pilotları Ermənistanın ətrafında uçmağa məcbur edir. Ermənistanın yaxınlığında digər Cənubi Qafqaz dövlətləri də var ki, onlar Aİ-yə daxil olmaq fikrində deyillər və onların səmasını Rusiyaya bağlamaq bundan da artıqdır.

Ermənistan üzərində səmanı bağlamaq Rusiyaya həssas zərbə ola bilər. İrəvan Rusiyadan Avropaya gedən yolda qovşaqlardan biridir. İrəvan bizim üçün bağlansa, İstanbul, Bakı və Belqradda transferlər qalacaq, baxmayaraq ki, Rusiya İrəvan hava limanından daha tez-tez istifadə edir. Məsələn, bu yaxınlarda vətəndaşlar İrəvan vasitəsilə İrandan Rusiyaya aparılıb. Amma əsas məsələ Ermənistandan paralel idxal üçün istifadə edilməsidir. Məsələn, Ermənistan Rusiyanın müdafiə sənayesi üçün yarımkeçirici məhsulların dördüncü ən böyük ixracatçısına çevrilib. Ermənistan Amerika və Avropa sanksiyalarından yan keçərək Rusiya üçün digər ikili təyinatlı malların təkrar ixracı mərkəzlərindən birinə çevrilib. Bu, ABŞ-ı o qədər narahat edir ki, 2023-cü ilin aprelində ABŞ-ın maliyyə nazirinin müavini Uolli Adeyemo hətta hökumətini Rusiyaya sanksiyalara məruz qalan malların tədarükünə qarşı sərt tədbirlər görməyə inandırmaq üçün Ermənistana uçmuşdu. Bundan sonra Ermənistan hakimiyyəti ixrac qaydalarını sərtləşdirib və məhsulun Rusiyaya daşınmasına yeni nəzarətlər tətbiq edib. Amma Ermənistan vasitəsilə Rusiyaya paralel idxal hələ də davam edir və erməni tərəfi bundan yaxşı gəlir əldə edir.

Ermənistan səması bağlı olsa, Rusiya paralel idxaldan başqa nə itirəcək? 2024-cü ilin məlumatlarına görə, Ermənistandan Rusiyaya meyvə ixracı iki dəfə artıb. Söhbət, məsələn, təkrar ixrac olunan bir neçə min ton kivinin ixracından gedir. Bundan əlavə, Ermənistanda yetişdirilən armud, alma, ərik, konservləşdirilmiş tərəvəz və meyvələr də Rusiya bazarlarına daşınır. Amma bu, meyvə və erməni konyakı ilə məhdudlaşmır. Rusiyaya Ermənistandan mis filizi, alüminium folqa, tütün gətirilir. Üstəlik qızıl, brilyant və zərgərlik. Təbii ki, Rusiya bütün bunlar olmadan da yaşaya bilər, amma paralel idxal üçün "imkan pəncərəsi" bağlanarsa, bu, birbaşa Rusiyaya zərbə olacaq. Bəzi mənbələrə görə, demək olar ki, Rusiyada Ermənistanın özündə olduğu qədər Ermənistan vətəndaşları və etnik ermənilər yaşayır. Düzdür, məlumatlar dəyişir. 2020-2021 siyahıyaalınmasına görə, 946 mindən çox var. Digər mənbələrə görə, 2,5 mln. Eyni zamanda, Ermənistanın özündə rəsmi olaraq 3,3 milyondan çox insan yaşamır. Erməni diasporu Rusiyada ən böyük diaspordur. Rusiyadakı etnik ermənilərin əksəriyyəti bizneslə, əsasən ticarət, tikinti və xidmət sahələri ilə məşğuldur. İrəvandakı hakimiyyət Rusiya ilə səmanı bağlasa, avtomatik olaraq bu biznesin qarşısı kəsiləcək. Bundan sonra Ermənistanın baş naziri Paşinyan üçün etnik ermənilər arasında ciddi suallar yarana bilər ki, bu da ona hakimiyyət bahasına ola bilər.

**V.VƏLİYEV**

# Evlilik yaşı niyə müxtəlif ölkələrdə fərqlidir?

***Evlilik yaşının artması həm müsbət, həm də mənfi nəticələr doğura bilər. Bu, cəmiyyətin ümumi inkişaf səviyyəsindən, ailə modelindən, iqtisadi və sosial şəraitdən asılı olaraq fərqli şəkildə qiymətləndirilə bilər. Əsas məsələ odur ki: Gənclər evlilik qərarını məcburiyyətdən deyil, hazırlıq və istəklə versinlər, cəmiyyət və dövlət qurumları isə həm erkən evliliyin, həm də həddən artıq gec evlənmənin doğura biləcəyi riskləri nəzərə alaraq təhsil, sosial dəstək və maarifləndirmə tədbirləri görsünlər.***

Evlilik yaşının artması, yəni insanların əvvəlki nəsillərlə müqayisədə daha gec ailə qurmağa üstünlük verməsi, son illərdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə müşahidə olunan sosial tendensiyadır. Bu dəyişiklik həm fərdlərin, həm də cəmiyyətin müxtəlif sahələrinə müsbət və mənfi təsirlər göstərə bilər.

SİA mövzu ilə bağlı araşdırma aparıb.






## Müsbət tərəfləri

*1. Təhsil və şəxsi inkişaf üçün daha çox zaman*

Gənclər evliliyi təxirə salmaqla özlərini daha çox inkişaf etdirə bilirlər: ali təhsil almaq, peşə və karyera qurmaq, özünü daha yaxşı tanımaq və emosional yetkinlik qazanmaq imkanı olur. Bu, onların gələcək ailə həyatında daha məsuliyyətli və hazırlıqlı olmalarını təmin edir.

*2. Qadınların cəmiyyətdə daha fəal rolu*

Evlilik yaşının artması xüsusilə qadınlar üçün faydalı olur: erkən yaşda ailə yükü altına girmədiklərinə görə, karyera və iqtisadi müstəqillik əldə etmə imkanı yaranır, bu da qadın hüquqlarının qorunmasına və gender bərabərliyinə töhfə verir.

*3. Boşanma riskinin azalması*

Araşdırmalar göstərir ki, daha yetkin yaşda evlənən cütlüklər arasında: bir-birini daha yaxşı tanımaq imkanı olur, daha düşünülmüş qərarlar verilir, nəticədə boşanma halları daha az olur.

*4. Uşaq hüquqlarının qorunması və erkən analığın qarşısının alınması*

Evlilik yaşının artması erkən nikah və erkən analıq riskini azaldır: bu da yeniyetmə qızların sağlamlığını, təhsilini və psixoloji durumunu qoruyur, cəmiyyətin ümumi rifah səviyyəsini yüksəldir.

## Mənfi təsirlər

*1. Ailə qurmağa marağın azalması*

Bəzi gənclər müstəqil həyat tərzinə o qədər alışır ki, evlilik onların prioritetindən çıxır: bu da uzun müddətdə ailə institutunun zəifləməsi, əhalinin azalması və demoqrafik problemlər yarada bilər.



*2. Doğum nisbətinin aşağı düşməsi*

Gec evlilik, eyni zamanda gec və az uşaq sahibi olmaq deməkdir. Bu: əhalinin yaşlanmasına, işçi qüvvəsinin azalmasına, gələcəkdə pensiya sisteminə və iqtisadi aktivliyə mənfi təsir edə bilər.

*3. Sosial təzyiq və ailə ilə fikir ayrılığı*

Bəzi cəmiyyətlərdə, xüsusilə ənənəvi bölgələrdə gənclərin evliliyi gecikdirməsi: valideynlər tərəfindən narahatlıq və təzyiq yaradaraq, nəsillərarası fikir ayrılığına səbəb ola bilər.

*4. Psixoloji təklik və sosial təcrid*

Evliliyi çox gecikdirən bəzi insanlar bir müddət sonra: özlərini tənha hiss edə bilər, sosial çevrələri darala bilər, bu da psixoloji gərginlik və depressiya riskini artıra bilər.

Evlilik yaşı niyə müxtəlif ölkələrdə fərqlidir? Bunun əsas səbəbləri nədir?

Evlilik yaşı müxtəlif ölkələrdə fərqli ola bilər və bunun səbəbi yalnız qanunla müəyyən edilən rəqəmlə məhdudlaşmır. Bu fərqliliklərin arxasında dayanan əsas səbəblər mədəniyyət, din, iqtisadi vəziyyət, sosial inkişaf səviyyəsi və təhsil imkanlarıdır.

*1. Mədəniyyət və ənənələrin təsiri*

Hər bir xalqın özünəməxsus həyat tərzi, ailə modeli və dəyərləri var. Bəzi cəmiyyətlərdə gənc yaşda evlənmək adətə çevrilib. Məsələn, kənd yerlərində və ya ənənəvi düşüncələrin güclü olduğu bölgələrdə erkən evliliyə daha çox rast gəlinir. Bu, bəzən valideynlərin "uşağım ailə qurub yerini tutsun" kimi fikirlərlə hərəkət etməsi ilə bağlı olur. Halbuki müasir şəhər həyatında insanlar öncə təhsil almağa, işləməyə və maddi müstəqillik qazanmağa üstünlük verirlər. Bu da evlilik yaşını avtomatik olaraq artırır.



*2. Dinin və dini qanunların rolu*

Bir çox ölkədə evlilik yaşı dinin təsiri ilə formalaşıb. Məsələn, bəzi müsəlman ölkələrində qız uşaqları 16 yaşında, hətta bəzi istisna hallarda daha tez evləndirilə bilir, çünki dini nikah bu yaşda qəbul edilə bilər. Əksinə, sekulyar və ya dünyəvi dövlətlərdə dinin hüquq sisteminə təsiri azdır, ona görə də evlilik yaşı daha sabit və yüksək müəyyən olunur.

*3. Təhsil səviyyəsi və sosial inkişaf*

Təhsil almaq üçün daha çox vaxt lazım olduğundan, inkişaf etmiş ölkələrdə gənclər daha gec evlənir. İnsanlar universitetə gedir, magistr təhsili alır, karyera qurur və yalnız ondan sonra ailə həyatı qurmaq haqqında düşünürlər. Əhalinin sosial rifahı, iş imkanları və qadınların cəmiyyətdə aktiv rolu artdıqca, evlilik yaşı da artır. Əksinə, inkişaf səviyyəsi aşağı olan bölgələrdə insanlar daha erkən yaşda evliliyə məcbur ola bilər.

*4. Qanunvericilik və dövlət nəzarəti*

Hər ölkənin qanunları fərqlidir. Bəzi dövlətlər evlilik üçün minimum yaşı 18 olaraq müəyyən edir, bəzilərində isə xüsusi hallarda bu yaş daha aşağı ola bilər (məsələn, məhkəmə və ya valideyn razılığı ilə). Lakin bəzi yerlərdə qanuni yaş olsa da, qeyri-rəsmi (dini və ya ənənəvi) nikahlarla erkən evliliklər baş verir. Bu isə uşaq hüquqlarının pozulmasına, erkən analığa və təhsildən yayınmaya səbəb ola bilər.

*5. İqtisadi və ailəvi səbəblər*

Bəzi ailələr maddi çətinlik ucbatından qız övladını tez ailə qurmağa təşviq edirlər. Onlar düşünürlər ki, bu yolla həm məsuliyyətdən azad olarlar, həm də övladlarının həyatını "təhlükəsiz" yerə yönləndirərlər. Halbuki bu yanaşma qızların gələcək inkişaf imkanlarını məhdudlaşdırır və onların sağlamlığına və psixologiyasına zərər verə bilər.

Evlilik yaşı cəmiyyətin inkişaf səviyyəsini, insan hüquqlarına yanaşmasını və ailə modelinə baxışını göstərən bir göstəricidir. Hər ölkənin öz reallığı, adət-ənənəsi və hüquqi sistemi olduğuna görə, bu yaş həddi də dəyişir. Lakin beynəlxalq təşkilatlar (məsələn, BMT və UNICEF) bütün dünyada minimum evlilik yaşının 18 olmasının vacibliyini vurğulayır. Bu, uşaqların təhsildən yayınmaması, sağlam inkişaf etməsi və ailə qurmağa hazır olması baxımından mühüm hesab olunur.

Ardı Səh. 7



# Evlilik yaşı niyə müxtəlif ölkələrdə fərqlidir?

Əvvəli Səh. 6

Minimum evlilik yaşını müəyyən edən qanunlar bir ölkənin uşaq hüquqlarına, cəmiyyətin rifahına və gender bərabərliyinə verdiyi önəmin göstəricisidir. Bu qanunların məqsədi gənclərin, xüsusilə qız uşaqlarının təhsil hüququnun, sağlam inkişafının və gələcək imkanlarının qorunmasıdır. Ancaq bu qanunların effektivliyi ölkədən-ölkəyə fərqli olur və bir sıra hüquqi, sosial və mədəni amillərdən asılıdır.



*1. Qanunların mövcudluğu ilə reallıq arasında fərq*

BMT və UNICEF-in məlumatlarına görə, dünyada 100-dən çox ölkədə minimum evlilik yaşı qanunla 18 olaraq müəyyən olunub. Amma bu o demək deyil ki, hər yerdə bu qaydaya əməl olunur. Bir çox ölkədə: valideyn razılığı, məhkəmə qərarı, dini nikah kimi istisnalarla bu yaş daha aşağı salına bilir. Bu isə qanunların formada var, məzmunda yox vəziyyətinə düşməsinə səbəb olur. Yəni kağız üzərində mövcud olan qanunlar həyatın içində tam tətbiq olunmur.

*2. Sosial və mədəni faktorların gücü*

Bir çox cəmiyyətdə adət-ənənələr qanundan daha güclü ola bilir. Məsələn: Kənd yerlərində və ya az təhsilli ailələrdə qız uşağını ”tez ərə vermək” ailə üçün ictimai nüfuz və ya maddi yükdən azad olmaq anlamına gəlir. Dini inanclar və yerli liderlərin təsiri də bu məsələdə qanunların qarşısını kəsə bilər. Nəticədə qanun olsa da, onun icrası praktiki olaraq zəif qalır.



*3. Qanunların tətbiqində nəzarət və mexanizmlərin rolu*

Bir qanunun effektivliyi yalnız onun qəbul olunması ilə yox, nəzarət mexanizmlərinin mövcudluğu və işləməsi ilə ölçülür. Bu sahədə uğurlu olmaq üçün aşağıdakılar vacibdir: Doğum qeydiyyatının düzgün aparılması (əks halda uşağın yaşını sübut etmək çətin olur), nikahların yalnız rəsmi orqanlar tərəfindən bağlanması, təhsil sisteminin gücləndirilməsi və məktəbə davamiyyətin məcburi olması, Cəza mexanizmlərinin işlək olması, yəni erkən evliliyə səbəb olan şəxslərə hüquqi tədbirlərin görülməsi. Bu addımlar atılmadıqda, qanun yalnız formal olaraq qalır.

*4. Təhsil və maarifləndirmənin əhəmiyyəti*

Qanunları effektiv edən təkcə hüquqi tədbirlər deyil, həm də maarifləndirmə və ictimai dəstəkdir. Əgər insanlar erkən evliliyin zərərlərini anlamırsa, qanunları pozmağa davam edəcəklər. Qız uşaqlarının təhsili, sağlamlığı, hüquqları barədə cəmiyyətin məlumatlı olması, qanunun daha dərin təsir göstərməsinə kömək edir.

*5. Beynəlxalq təşkilatların və QHT-lərin rolu*

UNICEF, UNFPA, Save the Children kimi beynəlxalq təşkilatlar bir çox ölkədə: qanunların sərtləşdirilməsinə, erkən evliliklə mübarizə proqramlarının həyata keçirilməsinə, cəmiyyətin maarifləndirilməsinə dəstək verirlər. Qeyri-hökumət təşkilatları isə yerli icmalarda işləyərək uşaqların hüquqlarını qoruyur və dövlətin zəif qaldığı sahələrdə boşluğu doldururlar.

Minimum evlilik yaşını müəyyən edən qanunlar uşaqların hüquqlarını qorumaq baxımından çox önəmlidir, lakin onların real təsiri bu qanunların nə qədər tətbiq olunduğundan, nəzarət edildiyindən və ictimai şüurun səviyyəsindən asılıdır. Qanun təkbaşına kifayət deyil, onu dəstəkləyən təhsil, maarifləndirmə, hüquqi mexanizmlər və sosial dəyişikliklər də vacibdir. Başqa sözlə, qanunlar lazımdır, amma cəmiyyətin də bu qanunların arxasında dayanması və onlara əməl etməsi daha da vacibdir.

**Vəkillər Kollegiyasının üzvü Paşa Səfərov:** ”Evlilik yaşı müxtəlif ölkələrdə fərqli müəyyən olunur



və bu fərqliliyin əsas səbəbləri cəmiyyətin formalaşmış adət-ənənələri, dini inancları, sosial struktur və hüquqi çərçivələrlə bağlıdır. Hər bir ölkənin tarixi, mədəniyyəti və dini baxışları həmin cəmiyyətdə evliliyin nə vaxt və hansı şərtlərlə mümkün olduğunu müəyyənləşdirir. Dünyada geniş yayılmış təcrübəyə nəzər salsaq, əksər hallarda qadınlar üçün evlilik yaşı kişilərlə müqayisədə daha aşağı müəyyən edilir. Bu, bir çox hallarda tarixən



formalaşmış gender rollarından irəli gəlir. Cəmiyyətlərdə qadının ailə qurmağa, uşaq dünyaya gətirməyə və ev təsərrüfatı ilə məşğul olmağa daha tez hazır olduğu düşünülüb. Kişilərin isə əvvəlcə iqtisadi cəhətdən müstəqil olmaları, ailə saxlamaq məsuliyyətini daşımağa hazırlaşmaları gözlənilib. Evlilik yaşını müəyyən edən qanunvericilik aktları hər bir cəmiyyətdə ailə institutunun formalaşmasına birbaşa təsir göstərir. Bu qanunların məqsədi yalnız nikah yaşını rəsmiləşdirmək deyil, həm də gənclərin fiziki, psixoloji və sosial cəhətdən ailə qurmağa hazır olduqları bir mərhələdə evliliyə təşviq olunmalarını təmin etməkdir. Təcrübə göstərir ki, evlilik yaşı nə qədər aşağı müəyyən olunarsa, bu cəmiyyət üçün bir o qədər riskli nəticələr doğura bilər. Çünki erkən yaşda qurulan ailələrdə: təhsilin yarımçıq qalması, iqtisadi asılılıq, erkən ana olmanın yaratdığı sağlamlıq problemləri, ailə içi zorakılıq və boşanma halları kimi ciddi sosial və psixoloji fəsadlara rast gəlinə bilir. Əslində bu kimi mənfi halları təkcə inkişaf etməkdə olan deyil, hətta inkişaf etmiş ölkələrdə də müşahidə etmək mümkündür. Məhz bu səbəbdən bir çox ölkələrdə minimum evlilik yaşı yüksəldilib və xüsusi hallarda (məsələn, məhkəmə icazəsi ilə) istisnalar nəzərdə tutulub.

Qanunvericiliklə minimum evlilik yaşının müəyyən edilməsi təkcə hüquqi məsələ deyil, bu həm də uşaqların hüquqlarının qorunması, qadınların sosial müdafiəsi və ailənin uzunömürlü, sabit şəkildə qurulmasının təmin edilməsinə yönəlmiş vacib bir sosial siyasətdir. Beləliklə, minimum evlilik yaşına dair qanunların tətbiqi və sərtləşdirilməsi cəmiyyətin sağlam inkişafı, təhsil imkanlarının artırılması və erkən nikahların qarşısının alınması baxımından müsbət rol oynayır. Əgər müxtəlif xalqların və dövlətlərin tarixlərinə nəzər yetirsək, görərik ki, evlilik yaşı ilə bağlı qəbul edilən qanunlar zaman-zaman dəyişib və bu yaş həddi uzun illər boyunca olduqca aşağı səviyyədə müəyyən olunub. Məsələn, Roma hüququ kimi qədim və hüquqi ənənəsi güclü olan bir sistemdə qızlar üçün nikaha daxilolma yaşı 12, oğlanlar üçün isə 14 yaş kimi müəyyən edilmişdi. Bu yanaşma, o dövrün sosial-iqtisadi reallıqları və ailə qurmaqla bağlı təsəvvürləri ilə sıx bağlı idi. Ailə institutuna daha erkən yaşda daxil olmaq həm cəmiyyətin, həm də ailələrin sosial strukturuna uyğun hesab edilirdi. Yalnız Roma deyil, qədim İngiltərə hüququnda da oxşar yanaşmalar var idi. Məsələn, İngilis ümumi hüququnda qızların 12 yaşında niqaha daxil olmasına icazə verilirdi. Bu normativ yanaşmalar uzun müddət dəyişməz qalsa da, sənaye inqilabından sonra və xüsusilə XX əsrdə insan hüquqları anlayışının formalaşması ilə birlikdə dəyişməyə başladı. Zaman keçdikcə təhsil səviyyəsinin yüksəlməsi, qadınların cəmiyyətdə daha fəal rol alması, uşaqların hüquqlarının tanınması və ailədaxili zorakılıq hallarının qarşısının alınması kimi faktorlar minimum evlilik yaşının



artırılmasını zəruri etdi. Bu gün isə bir çox ölkədə bu yaş həddi 18 yaş olaraq müəyyən olunub və bu yaşdan aşağı nikahlar ya qadağandır, ya da ciddi hüquqi şərtlərlə mümkündür. Əgər biz müxtəlif ölkələrin tarixlərinə nəzər salsaq, görərik ki, zaman-zaman minimum evlilik yaşı ilə bağlı müxtəlif qanunlar mövcud olub və bu yaş həddi çox vaxt aşağı müəyyən edilib. Bu, təkcə inkişaf səviyyəsi ilə deyil, daha çox həmin cəmiyyətlərin mədəniyyəti, adət-ənənələri və dini inancları ilə bağlı olub. Məsələn, Roma hüququnda qızların 12 yaşında niqaha daxil olmasına icazə verilirdi. Bu yanaşma həmin dövrün ailə və cəmiyyət strukturu ilə əlaqədar idi. Oxşar təcrübəyə qədim İngiltərə hüququnda da rast gəlinir, burada da qızlar üçün niqaha daxilolma yaşı 12 olaraq qəbul olunmuşdu. Amma bu hal yalnız qədim Avropa dövlətlərinə və onların tarixinə aid deyil. Məsələn, 17-ci əsrdə Amerikanın özündə belə, rəsmi sənədlərdə 9 yaşında bir qız uşağının niqaha daxil olması halları qeydə alınıb. Yəni, bu problem təkcə inkişafdan geri qalmış dövlətlərə aid deyil, bu, demək olar ki, bütün ölkələrin keçmişində mövcud olub. Maraqlı hal budur ki, hətta bu günün özündə də dünyada elə dövlətlər var ki, orada qadın üçün evliliyə daxilolma yaşı ya çox aşağıdır, ya da ümumiyyətlə qanunvericilikdə konkret şəkildə müəyyən olunmayıb. Məsələn, Səudiyyə Ərəbistanında evlilik üçün minimum yaş qanunla müəyyən edilməyib. Valideyn razılığı və ya dini icazə ilə daha azyaşlı qızlar niqaha daxil ola bilirlər. Bəzi digər ölkələrdə, məsələn, Yəmən, Niger, İran kimi dövlətlərdə isə 12 yaş və hətta ondan da aşağı yaşda qızların evlənməsi hallarına rast gəlinir. Bəzi inkişaf etmiş ölkələrdə də bu məsələdə istisnalar mövcuddur. ABŞ-ın bir sıra ştatlarında 14-15 yaşında evlilik məhkəmə və valideyn razılığı ilə qanuni hesab olunur. Bu faktlar onu göstərir ki, evlilik yaşı ilə bağlı müxtəlif yanaşmalar hələ də dünyada qalmaqdadır. Minimum yaşın qanunla tənzimlənməsi çox önəmlidir, çünki evlilik yaşı nə qədər aşağı olarsa, bu, cəmiyyət üçün bir o qədər təhlükəli nəticələr doğura bilər. Təhsil imkanlarının məhdudlaşması, erkən analıq, psixoloji hazırlıqsızlıq, ailədaxili zorakılıq və boşanma riskləri erkən nikahların nəticələrindəndir. Bu baxımdan, inkişaf etmiş ölkələrdə minimum evlilik yaşının artırılması və uşaq nikahlarının qarşısının alınması üçün hüquqi tədbirlər görülür. Amma yenə də bu məsələ yalnız hüquqi deyil, eyni zamanda mədəni, dini və sosial məsələdir. Ona görə də dünya üzrə vahid bir standart formalaşsa da, onu tətbiq etmək hər ölkənin daxili quruluşundan asılıdır.

Dünyanın müxtəlif ölkələrində evlilik yaşı ilə bağlı qanunlar və istisnalar böyük fərqliliklər göstərir. Məsələn, Pakistanda qadınlar üçün minimum evlilik yaşı rəsmi olaraq 16 yaş kimi müəyyən edilsə də, istisna hallar mövcuddur və bəzi hallarda 9 yaş da nikah üçün nəzərdə tutula bilər. Bu, xüsusilə məhkəmə icazəsi ilə mümkün olur və ölkənin qanunvericiliyində belə bir imkan yer alır. Oxşar vəziyyət Livanda da müşahidə olunur. Orada qadınlar üçün minimum evlilik yaşı 17 olsa da, məhkəmənin razılığı ilə qadınlar 9 yaşında da nikaha daxil ola bilərlər. Bu cür istisnalar həmin ölkələrin hüquqi sistemində tanınır və dünya təcrübəsində az rast gəlinməyən hallar arasında sayılır. Bununla yanaşı, Çin təcrübəsi daha fərqlidir və mənim fikrimcə, müasir yanaşmalar üçün daha örnək ola bilər. Çin qanunvericiliyinə görə, kişilər üçün evlilik yaşı 22, qadınlar üçün isə 20 yaş kimi müəyyən edilib. Bu yaş həddi cəmiyyətin sosial və iqtisadi inkişaf səviyyəsi, eləcə də fərdlərin fiziki və psixoloji yetkinliyi nəzərə alınaraq müəyyənləşdirilib. Bu nümunələr göstərir ki, dünya ölkələrində evlilik yaşına dair yanaşmalar mədəni, dini və hüquqi ənənələrə görə müxtəliflik təşkil edir. Həmçinin, istisna halların mövcudluğu da



evlilik yaşının müəyyənləşdirilməsində təkcə qanunların deyil, həm də sosial amillərin təsirli olduğunu sübut edir. Hər hansı istisnalar nəzərə alınsa da, mən hesab edirəm ki, həm qadın, həm də kişi üçün niqah yaşı nə qədər yüksək olsa, bir o qədər məqsədəuyğun olar. Xüsusilə, 20 yaş və yuxarı yaş həddi, gənclərin fiziki, psixoloji və sosial cəhətdən yetkinliyi baxımından daha uyğun və əlverişli hesab edilə bilər”.

***Söylü Ağazadə***

# “Azərbaycan heç bir ölkənin enerji modelini olduğu kimi təkrarlamır”




**“Mingəçevir uzun illərdir ki, Azərbaycanın energetika paytaxtı hesab olunur. Ötən əsrdə bu şəhər bir neçə mərhələdə ölkənin enerji təhlükəsizliyi baxımından mühüm hadisələrin mərkəzinə çevrilib. Burada inşa edilən su elektrik stansiyası və onun sonradan istismara verilən yeni blokları ölkəmizin enerji istehsal gücünü əhəmiyyətli dərəcədə artırıb”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**

O bildirib ki, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Mingəçevirin energetika potensialı daha da genişləndirildi: ”Bu inkişaf sayəsində ölkənin iqtisadi böyüməsinə və sənaye sahələrinin genişlənməsinə real zəmin yaradıldı. Çünki hər bir güclü iqtisadiyyatın əsasında dayanıqlı enerji təminatı dayanır. Enerji generasiyası müasir dövrün qaçılmaz və zəruri tələbidir. Bu baxımdan Azərbaycanın atdığı strateji addımlar ölkənin gələcək inkişafının əsas dayaqlarından biri kimi dəyərləndirilə bilər. Azərbaycanın energetika sahəsində atdığı addımlar həm daxili tələbatı ödəməyə, həm də ixrac potensialını artırmağa xidmət edir. Mingəçevir isə bu sahədəki irəliləyişlərin və uğurların simvoluna çevrilib. Bu gün Azərbaycanın enerji siyasəti çoxşaxəli və balanslı yanaşma ilə həyata keçirilir. Bir tərəfdən rəqəmsallaşma sürətlə aparılır, digər tərəfdən isə alternativ və bərpa olunan enerji mənbələrinin - xüsu-



sən günəş və külək enerjisinin istehsalı və nəqli istiqamətində mühüm addımlar atılır.

Bu sahədə qonşu ölkələrlə əməkdaşlıq da xüsusi əhəmiyyət daşıyır. Regional enerji kooperasiyası sayəsində Azərbaycan yalnız öz enerji təhlükəsizliyini deyil, eyni zamanda Avropa ölkələrinin enerji təminatında da mühüm rol oynayır. Xüsusilə elektrik enerjisinin ixracı baxımından ölkəmiz mühüm tranzit və istehsal mərkəzinə çevrilib. Azərbaycan bu gün elektrik enerjisini Türkiyə, Gürcüstan, İran, hətta Rusiya kimi ölkələrə ixrac edir. Azərbaycanın bu istiqamətdə yeritdiyi siyasət strateji cəhətdən həm daxili ehtiyacları qarşılayır, həm də ölkəmizə iqtisadi dividentlər qazandırır. Eyni zamanda bu siyasət beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Gələcəyə baxdıqda isə görünür ki, ölkəmizin seçdiyi bu məram, yəni bərpa olunan enerjilərin inkişafı, regional inteqrasiya və ixrac yönümlü enerji siyasəti vaxtında və düzgün verilmiş qərarlar nəticəsində daha da əhəmiyyətli nəticələr doğuracaq.

Azərbaycanın enerji siyasəti təsadüfi və ya kortəbi şəkildə deyil, əksinə, dərindən işlənmiş proqramlara əsaslanaraq mərhələli şəkildə həyata keçirilir. Bu sahədə dövlət başçısının birbaşa nəzarəti və təşəbbüsləri prosesin effektivliyini təmin edir. İstər yeni enerji bloklarının inşası, istərsə də mövcud blokların istehsal gücünün artırılması müasir texnoloji həllər əsasında icra olunur. Eyni zamanda Azərbaycan bu sahədə bir sıra beynəlxalq tərəfdaşlarla, o cümlədən İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və digər ölkələrlə sıx və məhsuldar əməkdaşlıq edir. Bu əməkdaşlıqlar nəticəsində ölkəyə müasir texnologiyalar gətirilir və onların tətbiqi genişlənir. Enerji sahəsinin modernləşdirilməsi həm də yeni texnoloji trendlərin ölkə daxilində sürətli tətbiqini təşviq edir. Bu strateji yanaşmanın ayrılmaz hissəsi kimi, Mingəçevirdə və digər regionlarda enerji sahəsinə yönəlik ixtisaslaşmış təhsil müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrdə gənc mütəxəssislər yeni bilik və bacarıqlarla silahlandırılır, onlara müasir enerji texnologiyaları öyrədilir. Beləliklə, Azərbaycanda yalnız enerji istehsalı deyil, eyni zamanda bu sahədə peşəkar kadr bazasının formalaşdırılması da təmin olunur. Bu gün Azərbaycan enerji sahəsində yalnız istehsalçı yox, eyni zamanda elmi-texniki bilikləri tətbiq edən və ixrac edən bir mərkəzə çevrilməkdədir. Bütün bu proseslər ölkədə enerji zəncirinin - istehsaldan insan kapitalının formalaşmasına qədər vahid bir sistem olaraq uğurla işlədiyini göstərir”.

Onun sözlərinə görə, Azərbaycanın enerji siyasətində müşahidə edilən uğurlar təsadüfi deyil: ”Bu, ilk növbədə ölkə başçısının məsələni kompleks və strateji yanaşma ilə idarə etməsinin nəticəsidir. Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və liderliyi nəticəsində enerji sahəsində bütün zəncirvari proseslər planlaşdırmadan icraya, istehsaldan ixraca qədər vahid bir sistemə çevrilib. Bu yanaşma təkcə daxili siyasət üçün deyil, həm də Azərbaycanın xarici siyasət strategiyasında əhəmiyyətli rol oynayır. Azərbaycan heç bir ölkənin enerji modelini olduğu kimi təkrarlamır. Əksinə, ölkə öz müstəqil enerji modelini formalaşdıraraq regional və qlobal enerji xəritəsində fərqlənməyi bacarıb. Əlbəttə, müəyyən sahələrdə dünya təcrübəsindən, müxtəlif ölkələrin uğurlu praktikasından yararlanılır. Lakin bütövlükdə, Azərbaycanın enerji siyasəti milli maraqlar üzərində qurulan və yerli reallıqlara uyğunlaşdırılmış özünəməxsus bir yanaşmadır. Bu strategiyanın əsasında Ümummilli Lider Heydər Əliyevin qoyduğu təməl dayanır. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ölkəni beynəlxalq enerji əməkdaşlığında etibarlı tərəfdaşa çevirmişdir. Nəticədə, artıq bir sıra ölkələr Azərbaycanın enerji sahəsində tətbiq etdiyi model və təcrübə ilə maraqlanır, onu öyrənir və bəzi hallarda öz enerji sistemlərində tətbiq edirlər. Azərbaycanın bu sahədə qazandığı nüfuz və təcrübə ölkəmizi təkcə resurs ixrac edən deyil, həm də enerji siyasəti ixrac edən dövlətə çevirir. Bu isə müasir dövrdə strateji üstünlüyün və milli gücün vacib göstəricilərindən biridir. Mövcud enerji strategiyamızın davam etdirilməsi və inkişaf etdirilməsi Azərbaycanın qarşısında duran başlıca vəzifələrdən biridir. Artıq bu istiqamətdə müəyyən edilmiş strateji xətt



uğurla tətbiq olunur və ölkəmizin malik olduğu potensial bu siyasətin həm dərinləşdirilməsinə, həm də daha geniş miqyasda reallaşdırılmasına imkan yaradır. Bu prosesdə öncə təhlükəsizlik təmin olunur, daha sonra isə planlaşdırılmış enerji layihələrinin ardıcıl şəkildə həyata keçirilməsi gəlir. Xüsusilə, nəzərə almaq lazımdır ki, enerji təhlükəsizliyi yalnız texniki və iqtisadi məsələlərlə məhdudlaşmır, burada fiziki təhlükəsizliyin də rolu olduqca böyükdür. Bunu 44 günlük Vətən müharibəsi bir daha sübut etdi. Həmin dövrdə düşmən qüvvələri Mingəçevirə - ölkəmizin strateji enerji mərkəzinə raket zərbələri endirməyə cəhd etdilər. Lakin bu obyekt yüksək səviyyədə mühafizə olundu və heç bir zərər görmədi. Bu, həm dövlətimizin müdafiə gücünün, həm də enerji sahəsinə verilən önəmin bariz göstəricisidir.

Azərbaycanın enerji infrastrukturu həm texniki, həm siyasi, həm də hərbi cəhətdən qorunur. Bu sahədə Prezident Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində enerji təhlükəsizliyi yalnız nəzəri strategiya deyil, həm də real və praktiki təminat formasında özünü göstərir. Əgər dost ölkələr Azərbaycanın uğurlarına sevinir və bu təcrübədən faydalanmağa çalışırlarsa, bəzi düşmən qüvvələr isə bu inkişafı dayandırmağa, ölkəmizi geri salmağa çalışırlar. Lakin bu cəhdlərin uğursuzluğa düçar olması artıq zamanın və reallığın təsdiq etdiyi həqiqətdir. Ona görə də, əminliklə demək olar ki, Azərbaycanın enerji strategiyası həm texnoloji baxımdan, həm siyasi baxımdan, həm də təhlükəsizlik müstəvisində davamlı və dayanıqlıdır. Bu da gələcəyə olan ümidlərimizi daha da gücləndirir”.

***Söylü Ağazadə***

# ABŞ-dan Türkmənistana təzyiq

## *Cebel hava limanı amerikalıların xoşuna gəlib*

***Yaxın Şərqdə vəziyyətin gərginləşməsi fonunda ABŞ-ın Türkmənistana marağı artır. ABŞ dövlət katibinin müavini Kristofer Landau ilə Türkmənistanın xarici işlər naziri Rəşid Meredov arasında baş tutan telefon danışığı təkcə diplomatik təmasların intensivləşməsini deyil, həm də ABŞ-ın Türkmənistanın İranla həmsərhəd olan coğrafi mövqeyinə marağını göstərir ki, bu da onu ABŞ üçün regionda potensial əhəmiyyətli tərəfdaşa çevirir. Bu yaxınlıq, eləcə də enerji sahəsində əməkdaşlıq və regional sabitliyin təmin edilməsi üçün potensial imkanlar Vaşinqtonun artan marağının əsas amillərindəndir.***



Ənənəvi olaraq neytrallığa sadiq qalan Türkmənistan ABŞ və Türkmənistanın yüksək rütbəli diplomatları Kristofer Landau və Rəşid Meredovun müzakirə etdiyi mürəkkəb geosiyasi vəziyyətdə təhlükəsizliyin və sabitliyin təmin edilməsində mühüm rol oynaya bilər. Türkmənistan Xarici İşlər Nazirliyinin məlumatına görə, telefon danışığı Amerika tərəfinin təşəbbüsü ilə baş tutub, tərəflər Türkmənistan və ABŞ arasında siyasi, ticarət-iqtisadi, sosial-mədəni və digər sahələrdə ikitərəfli tərəfdaşlığın uzunmüddətli müsbət təcrübəsini vurğulayıblar. "Xüsusən vurğulanıb ki, Türkmənistan BMT-də təmsil olunan dünya birliyi tərəfindən neytral statusu üç dəfə tanınmış dövlət kimi beynəlxalq məsələlərdə fəal və konstruktiv rol oynayır. Bu baxımdan, Türkmənistan tərəfi istənilən beynəlxalq problemin sülh yolu ilə həlli prinsiplərinə ciddi riayət edərək, Yaxın Şərqdə mövcud vəziyyətin geniş diapazonlu və diplomatik vasitələrdən istifadə etməklə həllində iştirak etməyə hazır olduğunu bildirib", - Türkmənistan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Üstəlik, Türkmənistan dolayısı ilə bir sıra Yaxın Şərq problemlərinin həllində iştirak edir. Xüsusən də Aşqabad xarici vətəndaşların İrandan çıxarılmasına köməklik göstərir. Xarici İşlər Nazirliyinin məlumatına görə, 50-yə yaxın dövlət Türkmənistandan yardım istəyib. Artıq ölkənin həm qurudan, həm də havadan keçid məntəqələri, eləcə də Aşqabad Beynəlxalq Hava Limanı Mərkəzi Asiya ölkələri, Rusiya, Koreya, BƏƏ, Səudiyyə Ərəbistanı, Oman, Bəhreyn, Qətər, Küveyt, Almaniya, İsveçrə, Danimarka, Böyük Britaniya və s.-dən 2000-dən çox vətəndaşı qəbul edib", - Türkmənistan Xarici İşlər Nazirliyi qeyd edib.

İran Türkmənistan üçün təkcə qonşu dövlət deyil. İki ölkə arasında enerji, nəqliyyat və ticarət sahələrini əhatə edən sıx iqtisadi əlaqələr mövcuddur. İran Türkmənistan təbii qazının əsas idxalçısı və SWAP sxemi çərçivəsində üçüncü ölkələrə nəqli üçün tranzit ölkədir. İkitərəfli əməkdaşlıq, həmçinin Meri-Məşhəd elektrik ötürücü xəttinin tikintisi və Türkmənistandan İrana elektrik enerjisinin ixracı üzrə birgə layihə də daxil olmaqla, elektrik enerjisi sənayesində fəal şəkildə inkişaf edir. Nəqliyyat dəhlizlərindən əlavə Qumdağ-Etrek-İran sərhədi avtomobil yolu (242 km) tikilir. Sərhəd ticarət zonalarının və Türkmənistan-İran İşgüzar Şurasının yaradılmasına dair razılaşmalar, eləcə də 2026-2028-ci illər üçün ticarət-iqtisadi əlaqələrin intensivləşdirilməsinə dair razılaşdırılmış plan var. Xəzərin ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq fəal şəkildə aparılır.

ABŞ üçün Türkmənistan sadalanan ərazilərdə analoji strateji maraq kəsb edir ki, bu da Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropa bazarına tədarükünü təmin etmək üçün nəzərdə tutulan Transxəzər qaz kəməri layihəsinə dəstək barədə dəfələrlə bəyanatlarla təsdiqlənir. Xüsusilə, son bəyanatı ABŞ Dövlət Katibi Marko Rubio 2025-ci ilin mayında verib. Türkmənistan və ABŞ hərbi sahədə zəngin və mübahisəli əməkdaşlıq təcrübəsinə malikdir. Uzun müddət Aşqabad hava limanının ərazisində ABŞ ordusunun loqistika mərkəzi adlanan və ABŞ-ın başçılıq etdiyi koalisiyanın Əfqanıstandakı əməliyyatının hərbi və humanitar maraqları çərçivəsində fəaliyyət göstərib. Formal olaraq hakimiyyət, hətta Türkmənistanın birinci prezidenti Saparmurat Niyazovun dövründə də bitərəflik prinsipindən yan keçmək üçün Türkmənistan ərazisində xarici hərbi kontingentin olmasını "BMT-nin himayəsi altında əməliyyat" çərçivəsində elan edirdi. Türkmənistan hakimiyyətinin icazəsi olmadan sərhədi keçməyə və hətta təyyarələrin təcili enişinə icazə verilmir.

Əfqanıstanda fəal hərəkətlər səngidiyindən, Türkmənistan paytaxt hava limanında faktiki olaraq hərbi baza olan logistika mərkəzinin işini ləngidib. Sonradan keçmiş sovet hərbi aerodromunun Meri-2-də belə bir mərkəzin yerləşdirilməsi ilə bağlı Amerika tərəfinin müraciətləri ilə bağlı əsassız şayiələr yayılıb. Amma ABŞ-ın bu ilin may ayında hava limanından aktiv istifadəsi ilə bağlı heç bir məlumat yoxdur. Türkmənistanın qərbində Cebel qəsəbəsində böyük hərəkətlilik diqqəti cəlb edir. Cebel 10 min nəfərə yaxın əhalisi olan şəhər tipli qəsəbədir. Cebeldən 20 km aralıda Balkanabadın (keçmiş Nebitdağ, Türkmən neftçilərinin paytaxtı) iri regional mərkəzidir, öz hava limanı yenidənqurma tələb edir və şəhər daxilində yerləşir.

Tikinti Əbu-Dabi İnkişaf Fondunun (ADFD) 367 milyon BƏƏ dirhəm (100 milyon dollar) məbləğində krediti hesabına maliyyələşdirilib və birdən-birə iki saziş imzalanıb - birincisi Cebeldə hava limanının tikintisi üçün 275 milyon BƏƏ dirhəminin ayrılmasını nəzərdə tutur, ikincisi isə elektrik enerjisi zavodunun inkişafı məqsədi daşıyır. 92 milyon BƏƏ dirhəmi (25 milyon dollardan bir qədər çox) dəyərində 10 meqavat. Bu barədə "Arabian Business" məlumat yayıb. Hava limanının tikintisinə 2021-ci ildə başlanılıb və 2025-ci ilin mayında göyərtəsində Türkmənistan lideri Qurbanqulu Berdiməhəmmədovun olduğu prezident təyyarəsinin enişinin dünyaya nümayişi ilə başa çatdırılıb.

Cebelin yaxınlığında duzlu su ilə kiçik bir göl və yerli kurort istisna olmaqla, heç bir əhəmiyyətli obyekt yoxdur. Keçmiş sovet hərbi aerodromunun yerində tikilmiş, 3200 m uçuş-enmə zolağı və bütün naviqasiya infrastrukturu olan hava limanının yerləşməsi yaxın ölkələrdən birində əməliyyatlar zamanı hərbi təyyarələrin təcili enişi üçün aerodromun ehtiyacları üçün çox uyğundur. Bununla belə, Aşqabadın da ABŞ-a təqdim edəcəyi bir şey var.

Prezident Donald Trampın vizaların verilməsinə nəzarəti gücləndirmək məqsədilə bir sıra ölkələrin vətəndaşlarının ABŞ-a girişini məhdudlaşdıran fərmanından sonra Türkmənistan da viza rejiminin sərtləşdirilməsinə məruz qalan ölkələr sırasında olub. Türkmənistan vətəndaşlarına indi B-1 (işgüzar səfərlər), B-2 (turizm, müalicə, şəxsi məqsədlər), B-1 / B-2, F (ali təhsil müəssisələrinin tələbələri), M (qeyri-akademik müəssisələrin tələbələri) və J (mübadilə proqramları) kateqoriyalı vizaların verilməsindən imtina ediləcək. Əslində, Türkmənistan vətəndaşları ABŞ-a yalnız investor, Amerika vətəndaşlarının ailə üzvləri və ya tranzit yolu ilə daxil ola bilərlər. Türkmənistan Xarici İşlər Nazirliyi bu qərardan narahatlığını bildirib və bunu tələsik adlandırıb.

**V.VƏLİYEV**

# Andrey Fyodorov: İran-İsrail müharibəsi Cənubi Qafqaza da təhlükə yaradır




***Rusiya xarici işlər nazirinin keçmiş müavini Andrey Fyodorov "Moskva-Baku" portalına müsahibəsində İran və İsrail arasında hərbi eskalasiyanı və onun Cənubi Qafqaza mənfi təsir risklərini təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Andrey Vladimiroviç, dünya əvvəllər də İranla İsrail arasında eskalasiyanın şahidi olub, indiki vəziyyət nə dərəcədə fərqlidir və nə qədər uzağa gedə bilər?*

- Fikrimcə, vəziyyət kökündən fərqlidir, əgər əvvəllər bu bir-birinə qarşı daha çox birdəfəlik "çarpışma" idisə, indi raket və digər hərbi potensialdan istifadə etməklə birbaşa hərbi qarşıdurmadan danışırıq. Eyni zamanda, aydındır ki, coğrafiyaya görə İrana qarşı heç bir quru əməliyyatı mümkün deyil və raket zərbələri mübadiləsi, görünür, davam edəcək.

Vəziyyətin inkişafı, digər məsələlərlə yanaşı, son nəticədə İsrailin məhvinin nə dərəcədə kritik olacağından asılı olacaq. İran 90 milyona yaxın əhalisi olan böyük dövlətdir, hər halda yaşayacaq. Əgər İran İsrailin infrastrukturunun tamamilə məhvinə doğru hərəkət edərsə, bu, Təl-Əviv üçün kritik ola bilər. İran üçün xüsusi qırmızı xətlər yoxdur: o, istədiyi kimi hərəkət edə bilər. İran özünü ABŞ tərəfindən aldanmış hiss edir. Və anti-İran qüvvələrinin İranda cəmiyyəti parçalamaq cəhdlərinə baxmayaraq, ölkədə kifayət qədər yüksək konsolidasiya var. Və bu, rejimə istədiyini etməyə imkan verir və nə vaxtsa Hörmüz boğazını bağlamaqla Avropa və ABŞ-ı çətin vəziyyətə salır.

*- Doğrudanmı Xəzər regionunda nüvə təhlükəsi riski var?*

- Risk var. Vəziyyət gərginləşərsə, Tehran "çirkli" bombadan istifadə edə bilər. Onlar İranın atom elektrik stansiyasına da zərbə vura bilərlər. Əgər anti-İran qüvvələri təsadüfən və ya qəsdən Buşəhrə zərbə endirsələr, bunun sonu saxlayıb. Və istəsə, əvvəlki kimi bu istiqamətdə fəaliyyətini davam etdirə bilər.

*- İsrail əməliyyata başlamaya bilməzdimi? Niyə indi buna ehtiyac var idi?*

- Bu əməliyyat Netanyahunun ölkə daxilində şəxsi siyasi xilasına xidmət edir, topal ördək yox, öz dövlətinin lideri kimi görünmək məqsədi daşıyır. Axı İrandan dövlətə təhdid kultu İsraildə on illərdir ki, mövcuddur və İrana qarşı istənilən hərəkəti cəmiyyətdəki əhval-ruhiyyə ilə əlaqələndirmək olar.

*- Azərbaycanın vəziyyətə münasibəti necədir sizcə?*

- Azərbaycan ənənəvi olaraq balans saxlayır və bütün məsələləri diplomatik yollarla həll etməyə çağırır. Azərbaycan Respublikası, gördüyümüz kimi, müxtəlif ölkələrdən olan insanları xilas edərək, tranzit dəhlizi rolunu mükəmməl şəkildə yerinə yetirir. İran və İsrail arasında yeni ciddi eskalasiya şəraitində Azərbaycan regionda təhlükəsizlik məsələsində qeyri-sabitlik, nəqliyyat layihələrinin dondurulması riskləri ilə üz-üzədir, üstəlik, Azərbaycanın qonşusunun ölkə daxilində çox qeyri-sabit İran və ya qərbyönlü rejimin qurulacağı İran olması riski var.

Nəqliyyat layihələrinə gəlincə, Rusiya "Şimal-Cənub" dəhlizində öz payını qoyub, Azərbaycanın Zəngəzur dəhlizinin alternativi İran vasitəsilə tikilməkdədir. Xəzər regionunda qeyri-sabitliyin artması, İranda potensial hakimiyyət dəyişikliyi "Şimal-Cənub" dəhlizinə son qoya bilər.

Məsələn, İran-İsrail eskalasiyası şəraitində Ermənistandan danışsaq, o, nə edəcəyini hələ başa düşə bilmir. Yerevan üçün gələn il keçiriləcək parlament seçkiləri öncəsi daxili çəkişmələr İran və İsrail arasındakı müharibədən qat-qat önəmlidir. Paşinyan daxili düşmənlərlə mübarizə aparmalıdır.

*- İranla İsrail arasında vəziyyəti sabitləşdirə biləcək kənar vasitəçi varmı?*



Çernobıl kimi olacaq.

*- Tramp, bildiyimiz kimi, uzun müddətdir ki, İrana qarşı tərəfsizdir. ABŞ-ın İranın nüvə obyektlərinə hücumlarının və İsrailin Tehrana qarşı əməliyyatına ABŞ-ın birbaşa dəstəyinin məqsədi nədir?*

- ABŞ-ın məqsədi İranda rejim dəyişikliyi, ABŞ-la ziddiyyət təşkil etməyəcək bir rejimin qurulmasıdır. Mütləq amerikapərəst olmaq məcburiyyətində deyil, lakin ABŞ, Avropa və İsraillə ziddiyyət təşkil etməməlidir. Amma məncə, bu məqsədə çatmaq çətindir. Əgər bu məqsədə çatmaq istəyirdilərsə, İranda sabitliyi daxildən pozmalı idilər.

Dünyada, ABŞ-da Trampı küncə sıxan güclü İsrail lobbisi var, o, Amerika prezidentini elə vəziyyətə salıb ki, o, artıq hərəkətə keçməyə və kömək etməyə bilməyib. İran, Amerika sistemində tez-tez baş verən kimi, çoxlarına asan şikar kimi görünürdü - indi biz bir dəfə zərbə vuracağıq və hər şey bitəcək, amma heç nə bitməyib. Bəli, ciddi ziyan var, amma kritik deyil. İran zənginləşdirilmiş uran ehtiyatlarını qoruyub

- Hazırda yox. İran və ABŞ arasında vəziyyəti sabitləşdirmək üçün daha çox variant var, baxmayaraq ki, bütün bunlar çox mürəkkəbdir, lakin İsraillə - qətiyyən yox. İran İsraillə heç bir sənəd imzalamayacaq, yalnız ABŞ-la, ümumiyyətlə hər kəslə nəsə imzalayar.

*- İranın xarici işlər naziri Əraqçi Moskvada Vladimir Putinlə görüşüb. Məqsəd nədir?*

- Məqsəd odur ki, Rusiya bütün səviyyələrdə, o cümlədən BMT Təhlükəsizlik Şurasında və s.-də İrana siyasi dəstəyini davam etdirsin. Bu, birincidir. İkincisi, Rusiyanın İranın nüvə infrastrukturunun bərpasında iştirakına zəmanət almaqdır. Üçüncüsü isə Rusiyanın İranın yenidən silahlanmasına yardım etməsi, müasir hava hücumundan müdafiə sisteminin yaradılması və s. Və bu parametrlərdə Moskva gələcəkdə Tehrana kömək edəcək.

*- İran-İsrail gündəmindən bir az uzaqlaşacam, amma çox da uzağa yox. Paşinyan bu yaxınlarda Türkiyəyə işgüzar səfər edib. Səfər faktını necə xarakterizə edərdiniz?*

- Paşinyana Türkiyə lazımdır. Türkiyə prezidentinin də bir müddət fikir ayrılıqlarını unudaraq Ermənistanın baş nazirinin öz təsir dairəsində olması faydalıdır. İqtisadi məsələlər hər iki tərəf üçün vacibdir. Türkiyə və Ermənistan iqtisadi əlaqələri artırsa, bu, Ermənistan üçün yaxşı olar. Paşinyan taktiki səbəblərdən Türkiyəyə yaxınlaşır. Bəli, Ərdoğan Azərbaycanın ətrafında dolaşmayacaq. Hələlik bunlar Ərdoğan və Paşinyanın Ermənistan-Türkiyə münasibətlərinin normallaşması vektorunu bildirən nümayişkaranə "çıxışları"dır.

**Tərcümə - Elçin Bayramlı**



# "Bizim ali təhsil müəssisələrimizdə elmi araşdırmalar aparılmır"



"Bilirik ki, Azərbaycan Respublikasında 2022-2026-cı illər üçün ölkənin sosial-iqtisadi inkişaf konsepsiyası təsdiq edilib. 2023-cü ildən başlayaraq ali məktəbə qəbul sayında ciddi artım var. Əgər 2022-ci il daxil olmaqla əvvəlki illərdə hər il 45 min tələbə ali məktəblərə qəbul edilirdisə, artıq bu il 63 mindən artıq tələbənin qəbul olunacağı gözlənilir. Bunun 75 minə çatdırılması hədəflənib". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elşən Qafarov deyib.

O bildirib ki, bundan 5-6 il öncə Azərbaycanda hər yüz tələbədən təqribən 70-i ödənişli təhsil alırdısa, halhazırda bu, 40-ın üzərindədir: "Eyni zamanda dövlət sifarişi ilə olan yerlərin sayında bir neçə dəfə artım olub. Bununla yanaşı təhsil-tələbə krediti fondu ödənişli təhsil alanlarla bağlı böyük sosial platformaya çevrilib.

Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında da ödənişli təhsilin zamanla dövlət sifarişi üzrə təhsillə əvəz olunması qarşıya qoyulmuş hədəflərdən biridir. Yaxın gələcəkdə təhsilin dövlət hesabına və dövlət sifarişi ilə olmasına tamamilə keçid gözlənilir. Düşünmürəm ki, təhsil dövlət hesabına və ya dövlət sifarişi ilə olarsa, keyfiyyətli təhsildir. Yəni universitetlər hər bir təhsilalana düşən maliyyə normativlərinə uyğun olaraq maliyyələşir. Biz elə bilirik ki, o, ödənişsizdir, amma dövlət hər bir tələbə üçün müəyyən olunmuş ödənişi universitetlərin, təhsil müəssisələrinin hesabına köçürür. Ona görə də, bu, təhsilalan üçün pulsuzdur. Amma universitet pulsuz təhsil həyata keçirmir. 2011-ci ildən başlayaraq artıq hər bir tələbə üçün müvafiq ixtisasa uyğun olaraq Nazirlər Kabineti hansı ixtisas üzrə ödəniş haqqının nə qədər olduğunu müəyyən edir. Dövlət hər tədris ilində tələbələrin sayına görə ixtisasa uyğun olaraq həmin vəsaiti universitetlərin hesabına köçürür.

Keyfiyyət məsələsi tamamilə ayrı anlayışdır. Çox təəssüflər olsun ki, bizim ali təhsil müəssisələri reytinq yarışmasına çıxıb. Ayrı-ayrı biznes platformalarında, guya, reytinq sistemində müəyyən yerləri tutmaq üçün çalışırlar. Amma ali təhsil müəssisələrinin əsas işi elmi araşdırmalar və kadr hazırlığıdır. Bu gün ali təhsil müəssisələrinin böyük əksəriyyəti bugünkü və sabahkı əmək bazarının tələblərinə uyğun olaraq kadr hazırlaya bilmir. Bu, reallıqdır. Ali məktəbi bitirənlər nə öyrənirlərsə, ancaq praktikada öyrənirlər. İkinci ən böyük faciəvi hal odur ki, bizim ali təhsil müəssisələrimizdə elmi araşdırmalar aparılmır".

**Söylü Ağazadə**

VII YAZI

# Milli mətbuat 150:

## Zərdabi aynasında ləkə olanlar

Həsən bəy Zərdabi min bir əziyyətlə mətbuatın təməlini qoyanda, bunun üçün dövrünün burjua ünsürlərinin təqiblərinə məruz qalanda, təhdidlərlə qarşılaşanda, ailəsi təhlükə ilə üz-üz qalanda yenə də mübarizədən əl çəkmirdi. Ona görə belə edirdi ki, milli mətbuatı yarada bilsin. Nail oldu da. Və görmək istədiyi mətbuat üçün bu fikirləri söyləyib getdi ki, hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, həm də düzü düz, əyrini əyri yazsın.

150 il. Əsryarımlıq bu dövr Azərbaycan mətbuatı tarixidir, həm də şanlı bir tarixdir. Bu gündən dünənə baxdıqda ona görə qürur duyuruq ki, xalqın maariflənməsində, müasirləşməsində böyük rol oynamaqla yanaşı, eyni zamanda onun tarixini də yazıb salnamələşdirən bir mətbuat görə bilirik. Bunu görə bilməyin özü 150 ilin böyük tarix olduğundan söhbət açır.

Lakin təəssüf ki, dünən də, bu gün də mətbuatımız Zərdabi aynasına ləkə olanlardan xali olmadı. Bütün dövrlərdə istər televiziyalarda, radiolarda, istərsə də qəzet redaksiyalarında olan yamaq jurnalistlər bu aynaya öz əqidə ləkələrini salmaqla məşğul oldular. Gündə bir "mətbu orqan" yaradıb jurnalistikanı öz alətlərinə çevirənlər, onun asan qazanc yolu olduğunu düşünənlər, "jurnalist" adı altında insanları qorxu, vahimə içərisində saxlamağa çalışanlar, qələmi təhdid vasitəsi olaraq seçənlər daraşdı milli mətbuatın canına. Özlərini filan media təmsilçisi olaraq təqdim etməklə, bunu təsdiq etmək üçün saxta jurnalist vəsiqələrindən istifadə ilə keçdilər "ayna" qarşısına, lakin bu aynada əyri düzü ötdü, keçdi, qalan isə qara ləkə oldu.








### Düz olan düz, əyri olan əyri göründü

Bir jurnalist kimi hər zaman bəzi "jurnalist həmkarlarıma" və onların yaratdıqları "müstəqil media"ya görə xəcalət çəkmişəm. Özlərini nalayiq aparmalarına, kənardan gülünc hədəfinə çevrilmələrinə, "dilənçi" davranışlarına, nahar vaxtı özlərini harasa yıxmalarına, rayona bir iş dalınca gəlib on obyektə baş çəkmələrinə, hər birindən də pay almadan geri qayıtmamalarına, onların arxasınca danışılanları öz qulağımla eşitdiyimə görə hər zaman xəcalət çəkmişəm. Özüm də jurnalist olduğum üçün hamımızın belə olduğunun fərz edildiyini düşünmüşəm. Əslində isə əsla belə deyil.

Çox da uzaq olmayan keçmişdə, yəni 10-15 il əvvəl regionlar hazırkı bəzi "müstəqil media"nın sələflərinin (sözsüz ki, o sələflərdən bu günə kimi qalanlar, formatını dəyişənlər də var) asan qazanc yerinə çevrilmişdi. Onlar əllərində "silah" daraşmışdı regionlara. Sanki "çəkilin o yana, yazmağa gəlmişik" kimi... İcra başçıları isə əsla istəməzdi ki, rəhbərlik etdikləri rayon və şəhərlərin adı ölkə mətbuatında hallansın. Baxmayaraq ki, həmin "müstəqil media" nümunələrinin rayonlarda heç adını da eşitməmişdilər, lakin yenə də icra başçıları rayonun adına xələf gəlməməsi naminə bütün qapıları onların üzünə açırdı. Yanlarına icra hakimiyyətindən bir nümayəndə də ayırırdı ki, gün ərzində onları istədikləri yerə aparsın. Rayonda olduqları müddətdə hərtərəfli təminatları üçün şərait yaratsın, yedirtsin-içirtsin və "yola" salsın. Bu nüansı yaxalayan həmin müstəqil media təmsilçiləri isə demək olar ki, qalmışdılar rayonlarda. Özləri üçün cədvəl tərtib etmişdilər ki, hansı ay hansı bölgəyə gediləcək. İlin sonunadək bütün ölkəni gəzib, yeni ildən təzədən bu "prinsip" əsasında işləməyə başlayırdılar və bu, onlara çox sərf edirdi. Rayonlardan həm cibi dolu, həm də maşınları dolu qayıdırdılar. Bütün bunlar gözlərimizlə gördüyümüz faktlardır ki, hər dəfə onlara görə utanmışıq, az qala "nə üçün bu sahəni seçdik axı" demişik.

Beləliklə, mətbuatımızda irinli yaralar, şər-şəbədə "qələm sahibləri", reket jurnalistlər, qarnını götürüb rayon-rayon dolanan, nə ad desək yaraşan, lakin tək jurnalistikadan xəbəri olmayan varlıqlar çoxalmağa başladı. Çoxaldıqca da Zərdabinin aynasında hər vilayət onların istədiyi kimi göründü, əslində olduqları kimi deyil. Bu isə bu aynaya ləkədən başqa heç nə gətirmədi.

Təəssüf ki, indi də mediamız bəlalərindən xali deyil. Ancaq qarayaxma, dəqiqləşdirilməmiş faktlara əsaslanıb özünəməxsus gündəm yaradan, etik qaydalardan bixəbərliyi hər an özünü göstərən, elə bu səbəbdən də dövlət məmurlarına qarşı təhqiramiz ifadələr işlədən, fotolar montajlayan, dünən biri haqqında ağzına gələni danışıb, həmin regiona səfərdən əli dolu qayıtdıqdan sonra onu tərifləməyə, "əslində filankəs pis oğlan deyilmiş" deyib yeni fiqur yaratmaq istəyən "jurnalistlər" hələ də öz sələflərinin əla xələfləridir. Hansı ki, əslində sorğu aparılsa, onların adını heç də hər kəs bilmir.

### Mediaya bəlli gəliş...

Mətbuat janrı nədir, hansılardır, necə yazmaq lazımdır, cümlə nədir, necə qurulur, orfoqrafiya nədir, nəyə xidmət edir anlayışlarından əsla xəbəri olmayan, "müstəqil mediaya" yalnız pul qazanmaq, yaxşı yaşamaq üçün gələnlər, bəli, çoxsaylı jurnalistdən yaxşı yaşayır. Lakin yaxşı bir təhlil, araşdırma, oçerk, reportaj, analiz xarakterli yazının nə olduğunu bilmirlər.

İllərlə yuxarıda da qeyd etdiyim kimi, şəhərli-rayonlu gəzib-dolanan, baş vurmadıqları idarə, müəssisə, təşkilat qalmayan, dəqiqədəbir zəngləri ilə camaatı dəngəsər edən bu "jurnalistlər" tutarlı bir yazı yazıb saytlarında yerləşdiriblərmi? Ölkədə hansısa bir problemi üzə çıxarıb həlli yollarını axtarıblarmı, təkliflərini veriblərmi, araşdırıb bir məsələni meydana gətirə biliblərmi, sosial problemlər barədə bircə tutarlı yazı yaza biliblərmi? Təəssüf ki, belə bir yazı yoxdur. Çünki həmin saytların işi şəxsi mənafelərə xidmət etmək, onların reklamı ilə məşğul olmaq, haradasa bir "xəta" axtarıb onun arxasınca gedib pul qazanmaq olub, vəssalam.



Elə bütün bu dediklərimiz mediaya kimlərin bəlli gəldiyini bəlli edir. İş də göz önündədir, məqsəd də.

### MEDİA reyestri ədalət tərəzisi oldu

Ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar kimi, media sahəsində də buna ehtiyac duyulduğundan "Media haqqında" qanun qəbul ediləndən sonra media subyektlərinin reyestrdən keçməsi də zəruri oldu. Media reyestri ədalət tərəzisidir. Bu tərəzinin gözündə hansı media nümunəsi tarazlıq təşkil edirsə, o da asanlıqla reyestrdən keçir və öz fəaliyyətinə davam edir. Burada anlaşılmaz heç nə yoxdur. Hətta ayrı-seçkilik də yoxdur. Media təmsilçisi olaraq nəsənsə, ölkədə, oxucu, izləyici kütləsi arasında mövqeyin nədirsə, reyestrdən keçməni də məhz bunlar müəyyən edir. Təbii ki, bunları biz söylədiyimiz kimi görə və dərk edə bilməyənlər hələ bir kimdənsə küsüb-incidilər də, hətta ondan məhkəməyə şikayətə də getdilər. Nədənsə reyestrdən keçməkdə "birinci" olduqlarını sandılar. Əslində isə keçə bilməməklə qiymətlərini almış oldular.

Müstəqil media o demək deyil ki, sən öz fəaliyyətini özün istədiyin kimi qurasan, savadsız, heç bir səriştəsi olmayanlara jurnalist "statusu" verəsən, mənəm-mənəmlik edəsən, Azərbaycan dilinin qrammatik qanunlarını pozasan, nə yazdığını, nə təqdim etdiyini heç özün də bilməyəsən.

Düşünürəm ki, səhərdən bəri haqqında danışdığımız "jurnalistlər"də, onların "mediası" da Azərbaycan mətbuatının üz qarasıdır. Nə üçün vicdanlı, ədalətli, qərəzsiz, öz işinin ağası olan, bir yazısı ilə onlarla belə "jurnalisti" bir qələmlə silə biləcək peşə sahibləri ilə onlar bir peşəni bölüşməli, utanmalı, xəcalət çəkməlidirlər?

Bu, ictimai bir problemdir. Ona görə də istər jurnalist olsun, istər oxucu, izləyici kütləsi, bu məsələyə öz münasibətini bildirməlidir. Çünki bu cür "media"dan xilas olmaq həm jurnalist, həm də oxucu, izləyici olaraq ən başlıcası özümüzə hörmət deməkdir.

Küçənin ortasında, otağın bir küncündə, bəzən elə telefondaca yaranan və küçə formatından, otaq çərçivəsindən, telefon ölçüsündən çıxa bilməyən, elə bütün bunlara görə də təbii ki, "Media haqqında" qanuna əsasən reyestrdən keçə bilməyib əvvəlkindən də miskin vəziyyətə düşən, səsləri məhkəmələrdən gələn bu "media nümunələri" və onların özlərini müstəqil media nümayəndələri adlandıran "əməkdaşları", bizim bəzi "həmkarlarımız" haqqında söhbət açmağın yerinə düşdüyünü fikirləşirəm. Çünki milli mətbuatımızın keçdiyi 150 illik tarixi yolda bələləri də olub və varlıqları ilə yaxşının və pisin müqayisəsini aparmağa şərait yaradıblar.

### Sosial media və sosial şəbəkələr: ləkələr daha aydın görünür

Artıq illərdir ki, ənənəvi mətbuatla yanaşı, internet mediası da fəaliyyətə başlayıb. Eləcə də hazırda sosial şəbəkələrin hər biri sosial medianın bir qoluna çevrilib. Təbii ki, doğru və yalan xəbərin qarmaqarışıq məkanı olan sosial şəbəkələri çox vaxt sosial media adlandıranlar da var. Bunu belə anlayaq ki, hələ də aramızda sosial media ilə sosial şəbəkəni ayırd edə bilməyənlər var. Bu, məsələnin bir tərəfi. Digər tərəfi isə odur ki, əvvəlki illərlə müqayisədə indi kimin nə yazdığı, nə danışdığı, hadisələrə necə münasibət bəslədiyi həmin doğru və yalan xəbərlər kimi sürətlə yayılır. Kimin müəllifi və aparıcısı olduğu verilişin hansı məqsədə xidmət etdiyi, bu verilişlərdə xalqın ailə və milli-mənəvi dəyərlərinə vurulan baltaların səsi daha çox eşidilir, duyulur. Çünki sosial media və sosial şəbəkələr hər şeyi, eləcə də ləkələri daha tez və daha aydın göstərmək, yaymaq gücünə malikdir. Ona görə də milli mətbuatın haqqını verə bilməyənlər, ondan başqa məqsədlər üçün istifadə edənlər anlasın ki, artıq illər öncəki vaxt deyil ki, hər hansı bir əməlin üstünü ört-basdır etmək mümkün olsun. İndi bunun üçün artıq gecdir. Odur ki, Zərdabi aynasında qara ləkə olanlar bu ləkəni yaradan səbəblərə yenidən nəzər salsın, silmək üçün deyil, yeni ləkələrin qarşısını almaq üçün...

***Mətanət Məmmədova***

# Yaxın Şərqdə böyük oyun

## *İran Trampı Ukrayna-Rusiya savaşından yayındıra bildimi?*



Donald Tramp administrasiyası İranın nüvə obyektlərinə zərbələrin birdəfəlik olduğunu açıqlayıb. Lakin Tehran sülhə razı olmasa, ABŞ bunu təkrarlaya bilər. Prezident Donald Tramp "Truth" sosial şəbəkəsində də yazıb ki, əgər hazırkı hökumət öz ölkəsini "yenidən möhtəşəm" edə bilməsə, İranda rejim dəyişikliyini istisna etmir. "Amerikanı yenidən möhtəşəm et" şüarı altında Trampın prezidentliyi keçirilir və o, görünür, onu başqa ölkələrə ötürür, onların gözlənilən və "yanlış" davranışları arasında fərq qoyur. ABŞ-ın vitse-prezidenti J.D.Vansın sözlərinə görə, Tramp mayın ortalarında İranla danışıqların heç bir nəticə vermədiyi qənaətinə gəlib və özəl olaraq Tehrana ultimatumlar göndərib. Bunlar başa düşmək üçün vacib sözlərdir ki, Amerika prezidentinin "bu haqda düşünmək üçün iki həftə" və digər situasiyalarda qərarların qəbul olunmaması ilə bağlı bəyanatları real və qəfil hərəkətlər üçün pərdə rolunu oynaya bilər.



Venc iddia edir ki, ABŞ uzunmüddətli münaqişəyə girmək istəmir. Amma bu baş verə bilər, çünki İran hələ də necə cavab verəcəyini düşünür. Məsələn, o, regiondakı Amerika bazalarını vura bilər və bu, Vaşinqtonu cavab verməyə və münaqişəyə qarışmağa məcbur edəcək. İran hakimiyyəti zənginləşdirilmiş uranı Fordodakı yeraltı obyektdən çıxarmağa vaxt tapıb, bu isə o deməkdir ki, nüvə proqramının həyata keçirilməsi MAQATE-nin nəzarəti olmadan davam edə bilər. Və bu halda amerikalılar da mütləq müdaxilə etməli olacaqlar.

ABŞ və Trampı İranla qaynar münaqişəyə cəlb etmək Ağ Ev üçün digər aktual qlobal problemlərin ikinci planda qalacağı anlamına gələ bilər. Məsələn, bu, Ukrayna məsələsinə aiddir. Seçildiyi gündən etibarən Tramp Moskva və Kiyev arasındakı münaqişədə tam, gündəlik iştirakını nümayiş etdirdi, mühüm zənglər və məhsuldar söhbətlər barədə məlumat verdi, Rusiya və Ukraynaya xüsusi nümayəndələr göndərdi, Zelenskinin davranışını və Putinlə danışıqlar perspektivlərini açıq şəkildə qiymətləndirdi. Onun öz effektivliyini, bəzi problemləri tez həll etmək bacarığını nümayiş etdirmək və növbətisinə keçmək vacib idi. İran məsələsi onun Ukrayna məsələsində iştirakının dərəcəsinə təsir edə bilər. Amma bu halda belə Trampın nə edəcəyi tam aydın deyil.




Məsələn, Amerika prezidenti başlayan ləng danışıqları müvəqqəti, qənaətbəxş nailiyyət kimi qəbul edə və diqqəti ilk növbədə İrana yönəldə bilər. Bu variant Moskvaya qarşı yeni, daha sərt sanksiyalar və ya Kiyevə əlavə yardım demək deyil. ABŞ danışıqlarda iştirak edəcək, lakin Trampın şəxsi müdaxiləsi və onun gözlənilməz təşəbbüsləri olmadan, lakin az-çox formalaşmış institutlar, münaqişə tərəfləri ilə xüsusi nümayəndələrin təmasları, müntəzəm hesabatlar rejimində. Belə bir ssenarinin Kiyevdən daha çox Moskvaya yaraşdığını deməyə əsas var. Bu halda hərbi əməliyyatlar davam edəcək, rus qoşunları "yerdə" üstünlüyə malik olacaq, onlar öz mövqelərini - eyni zamanda, danışıqlarda Moskvanın mövqelərini yaxşılaşdırmağa çalışacaqlar. Trampın da İrana keçdiyi, eyni zamanda Moskva ilə Kiyev arasında nizamlanma prosesini sürətləndirmək istədiyi başqa bir ssenari var. Ağ Ev sahibinin nümayiş etdirdiyi məntiq ondan ibarətdir ki, ağıllı insanlar onun təkliflərindən imtina etmirlər, onun sanksiyaları ən sərtdir, ultimatumlar isə məcburi və sürətli cavabı nəzərdə tutur. Və belə olan halda Tramp prosesin gecikdirilməsinə görə kimin məsuliyyət daşıyacağı sualı yaranır. O, sanksiyaların köməyi ilə Moskvaya təzyiq göstərə bilər, onun fikrincə, bu, çox effektivdir. O, həmçinin Zelenskidən ərazi iddialarından əl çəkməyi və Rusiyanın şərtlərini qəbul etməyi tələb edə bilər. Və bu təzyiq mexanizmlərinin çox tez işləməsini gözləyin.

### Xaos, yoxsa III Dünya müharibəsi?

İsrailin İranla müharibəsi qlobal enerji böhranına səbəb olacağı barədə proqnozlar verilir. Fars körfəzi ölkələrində neft emalı zavodlarının işi risk altında ola bilər. Bu halda dünya tarixin ən dərin iqtisadi tənəzzülünə qərq olacağı deyilir. Bir neçə mühüm sual yaranır: beynəlxalq məsələlərə cavabdeh olanlar İsrail və İran arasında müharibənin Fars körfəzi ölkələrində qlobal enerji böhranına səbəb ola biləcəyini düşünürdülərmi? Yoxsa onların məqsədi bu idi? İsrailin İrana kütləvi hücumu III Dünya müharibəsini başlada bilərmi? İrana hücum edilsə, Çin və Rusiya necə reaksiya verəcək? "Xaos" adlandırdığımız köhnə dünya düzəninin dağıdılmasında son mərhələ və yenisinin formalaşması üçün başlanğıc nöqtəsi ola bilərdimi?

Təəssüf ki, neft hasil edən və ixrac edən altı körfəz dövlətinin neft yataqları və neft emalı zavodlarının risk altında ola bilməsi riski var. Bu ölkələr birlikdə gündə təxminən 18 milyon barel neft hasil edərək, onları dünyanın ən böyük neft istehsalçıları sırasına daxil edirlər. Bundan əlavə, Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələri dünyanın ümumi xam neft ehtiyatlarının təxminən 32,6%-nə malikdir. Təsəvvür edin ki, İran öz təhdidlərinə əməl edib ABŞ-ın bölgədəki 63 hərbi bazasına və ABŞ-ın Fars körfəzindəki obyektlərinə, xüsusən də neft yataqlarına raket zərbələri endirərsə, qlobal iqtisadi böhran yarana bilər. Bu baş verərsə, dünya tarixinin ən dərin iqtisadi tənəzzülünə düçar olacaq. Qlobal iqtisadi böhranlar və tənəzzüllər adətən genişmiqyaslı dünya müharibəsinin xəbərçisi olur.

ABŞ prezidenti Donald Tramp Vaşinqtonun Tel-Əvivin Tehranla müharibəsinə qoşulub-qoşmayacağına dair qərar vermək üçün iki həftəlik möhlət qoyub. O deyir ki, bu vaxt "insanların özünə gəlib-gəlmədiyini görmək üçün" kifayətdir. Bununla belə, keçən cümə o, İranın həftələr və ya aylar ərzində nüvə silahı istehsal edə biləcəyi nöqtədə olduğunu, ABŞ-ın icazə verə bilməyəcəyini söyləyib. Altı B-2 gizli bombardmançı təyyarəsi Missuridəki bazadan havaya qalxaraq İranın Fordo nüvə obyektinə 12 ağır bunker bombası atıb. Otuz TLAM qanadlı raketi ABŞ Hərbi Dəniz Qüvvələrinin sualtı qayıqlarından Natanz və İsfahandakı obyektlərə buraxılıb. B-2 bombardmançıları həmçinin 6000 funt (2,7 ton) partlayıcı ilə birlikdə 30,000 funt (təxminən 13,6 ton) ağırlığında iki GBU-57A/B Massive Ordnance Air and Missile (MOA) bunker bombası atdılar.

Bazar günü ABŞ prezidenti Donald Tramp bildirib ki, ABŞ ordusu İrandakı üç nüvə obyektinə - Fordo, Natanz və İsfahana "çox uğurlu hücum" həyata keçirib. "Biz İrandakı üç nüvə obyektinə çox uğurlu hücumumuzu başa çatdırdıq. Təəccüblüdür ki, Tehranın nüvə silahı yaratmaq təhlükəsini aradan qaldırmaq bəhanəsi ilə həyata keçirilən ABŞ-ın İrana qarşı bu hücumu ABŞ Milli Kəşfiyyatının direktoru Tulsi Qabbardın İranın nüvə silahı yaratmaq üçün fəal işləmədiyi barədə bəyanatlarına baxmayaraq baş verib.

ABŞ-ın İrana hücum etdiyi gün, yəni şənbə günü İslam Respublikası parlamenti fövqəladə iclasa toplaşıb. Fars körfəzi ölkələrindən neft və təbii qazın beynəlxalq bazarlara daşınması üçün əsas yollardan biri olan Hörmüz boğazının bağlanmasına yekdilliklə qərar verilib. Beləliklə, ciddi nəticələrə səbəb olan bir sıra qlobal tədbirlər və əks tədbirlər başladı. Tehran İsrail ordusunun hava hücumlarına cavab olaraq İsrailin Təl-Əviv, Hayfa, Yaffa və digər şəhərlərinə raket zərbələri endirib. ABŞ-ın İran ərazisinə zərbə endirməsindən sonra İran hökuməti Hörmüz boğazını bağlamaq qərarına gəlib.

### Çin və Rusiyanın mövqelərinə gəlincə

70 ildir ki, Pekinin dəqiq strategiyası var: Çinin daxilində və ya xaricində münaqişələrə bir yuan da xərclənməməlidir. Əvəzində hər yuan sənayenin, kənd təsərrüfatının inkişafına, yeni texnologiyaların inkişafına və ixraca xərclənir. Çinin edəcəyi tək şey öz strategiyasını davam etdirmək, münaqişənin inkişafını yaxından izləmək və təmkinli olmağa çağırmaqdır. Çinlə sıx əlaqələri və ortaq maraqları olan Rusiya bu münaqişəyə qarışmağa risk etməyəcək. Yəqin ki, Ukrayna bataqlığından çıxmaq üçün bundan istifadə etməyə çalışacaq. Moskva atəşkəs və danışıqlar masasına qayıtmağa çalışacaq.

Və son sual: deyə bilərikmi ki, bu müharibə köhnə dünya nizamının məhv edilməsi yolunda son mərhələ və yenisinin formalaşması üçün başlanğıc nöqtəsidir? Cavab təbii ki, bəli. Bu ayın 12-dən İranda baş verənlər və 2023-cü il oktyabrın 7-dən Qəzzada baş verənlər, şübhəsiz ki, 1991-ci ilin dekabrında Berlin divarının yıxılması və Sovet İttifaqının dağılması ilə fəaliyyətini dayandıran dünya düzəninə kədərli və biabırçı bir vida mərasimidir.

Köhnə dünya nizamı ədalət və beynəlxalq hüququn aliliyi prinsiplərinə əsaslanan yenisi ilə əvəzlənməmişdir. Əvəzində Beynəlxalq Cinayət Məhkəməsi (ICC) tərəfindən hərbi cinayətlərə görə axtarışda olan Benyamin Netanyahu güc və hədə-qorxu siyasətini elan edib və həyata keçirib. Ona ABŞ prezidenti Donald Tramp da qoşulub və o, İsrailin baş naziri ilə işçi qrupunun yaradıldığını açıq şəkildə bəyan edib. Bu biabırçı tərəfdaşlıq ayrıca müzakirəyə layiqdir.

**V.VƏLİYEV**

# "Azərbaycan unikal geosiyasi mövqeyə malikdir"



"Azərbaycan unikal geosiyasi mövqeyə malikdir. Şərqlə Qərbin kəsişməsində, eyni zamanda geniş mənada Cənub və Şimal geosiyasi məkanlarının kəsişdiyi bir bölgədə yerləşən Azərbaycan, adeta Dekart koordinat sistemində koordinat başlanğıc nöqtəsinə bənzər strateji mövqe tutur. Bu, təkcə coğrafi deyil, həm də siyasi, iqtisadi və mədəni baxımdan əhəmiyyətli bir mövqedir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib.**






Onun sözlərinə görə, Azərbaycan həm Cənubi Qafqazın enerji və nəqliyyat mərkəzidir, həm də Şərqlə Qərb arasında körpü funksiyasını yerinə yetirir: "Bununla yanaşı, ölkəmiz həm Qərbin, həm də Şərqin etibarlı tərəfdaşı kimi çıxış edir. Əgər xəritəyə diqqətlə baxsaq, Aralıq dənizindən Hind okeanına qədər uzanan geosiyasi meridiyan boyunca ən mühüm və həssas bölgənin məhz Azərbaycan ərazisi olduğunu görmək mümkündür. Rusiya–Ukrayna münaqişəsi, İran–İsrail qarşıdurması və digər regional gərginliklər fonunda Azərbaycanın yerləşdiyi bu məkanın əhəmiyyəti daha da artır və ölkəmizin geosiyasi çəkisi bir daha təsdiq olunur. Tarixi baxımdan, Osmanlı imperiyası dövründə belə, Azərbaycanın strateji mövqeyi və potensialı bölgədə əməkdaşlıq üçün cəlbedici olmuşdur. Bu gün də bir çox ölkə Azərbaycanla tərəfdaşlıq etməyi arzulayır. Xüsusilə də Çin tərəfindən irəli sürülmüş "Bir Kəmər, Bir Yol" təşəbbüsü kontekstində Azərbaycanın bu geoiqtisadi layihəyə inteqrasiyası olduqca mühüm əhəmiyyət daşıyır. Azərbaycan bu təşəbbüsə 2005-ci ildən etibarən qoşulmuşdur və həmin tarixdən etibarən təşəbbüs çərçivəsində fəal rol oynayır.

Hazırda bu təşəbbüsün genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlıq davam etdirilir. Tərəfdaş ölkələr arasında yeni layihələr, yeni mərhələlər və yeni əməkdaşlıq formatları yaradılır. Azərbaycan da bu çərçivədə mühüm nəqliyyat, enerji və logistika layihələrinin həyata keçirilməsində aktiv iştirak edir. Bu fəaliyyətlər həm regionun, həm də qlobal miqyasda Azərbaycanın rolunu gücləndirir və ölkənin beynəlxalq nüfuzunu artırır".

Ekspert qeyd edib ki, "Bir Kəmər, Bir Yol" təşəbbüsü hər bir iştirakçı ölkə üçün, o cümlədən Azərbaycan və Çin üçün strateji əhəmiyyət kəsb edir: "Bu təşəbbüs yalnız iqtisadi əməkdaşlıq çərçivəsi ilə məhdudlaşmır, həm də regionlararası inteqrasiya, ticarət axınlarının liberallaşdırılması və nəqliyyat-logistika imkanlarının genişləndirilməsi baxımından mühüm rol oynayır. Eyni zamanda, "Bir Kəmər, Bir Yol" təşəbbüsü müəyyən aspektlərdə Orta Dəhliz konsepsiyası ilə uzlaşır. Hər iki platforma Avrasiya məkanında nəqliyyat əlaqələrinin inkişafını, enerji və yük daşımalarının optimallaşdırılmasını, eləcə də tranzit ölkələrin geoiqtisadi rolunun gücləndirilməsini hədəfləyir. Bu baxımdan Azərbaycanın rolu körpü ölkə olaraq xüsusi əhəmiyyət daşıyır. Dəhliz hazırkı (2024) mərhələsində 10-a yaxın ölkəni birbaşa əhatə edir. Bu marşrutun ətrafında isə 4.5 milyard insanın yaşadığı 60-a yaxın ölkə yerləşir. Buranın nəqliyyat imkanlarından 15-dən çox ölkənin yükdaşıma şirkətləri istifadə edir.

Göründüyü kimi, kifayət qədər geniş coğrafiyanı əhatə edən Orta Dəhliz Çin–Qazaxıstan sərhədindən başlayaraq, Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, daha sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər geniş bir ərazini əhatə edir. Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Çindən Türkiyəyə, oradan da Avropa ölkələrinə və əks istiqamətdə yükdaşımaların həyata keçirilməsinə xidmət göstərir. Hazırda Orta Dəhliz vasitəsilə yüklər Avropaya iki istiqamət üzrə nəql edilir. Onlardan biri Gürcüstanın Poti və Batumi limanları vasitəsilə, digəri isə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə yerinə yetirilir. Bu istiqamət Orta Dəhliz vasitəsilə yükdaşımaların xərclərini aşağı salaraq tranzit əməliyyatlarının həcminin artırılmasına xidmət edir"- deyə ekspert əlavə edib.

# Erkən evliliyə, yoxsa erkən fahişəliyə qarşı mübarizə?



Elçin Bayramlı

## Media və qeyri-hökumət təşkilatları erkən fahişəliyə qarşı mübarizə əvəzinə yalnız "erkən" evliliyə qarşı mübarizə aparmaqla məşğuldur

Azərbaycan xalqının minillərlə formalaşmış mənəvi dəyərlərini qərbdən yeridilən saxta dəyərlərlə əvəzləmək cəhdləri davam edir. Avropanın bizə yeritdiyi qanuna qalsa, tam formalaşmış, hər cəhətdən yetkin 17 yaşlı qız ailə qura bilməz, amma 16 yaşlı körpə qızcığaz azad şəkildə fahişəlik edə bilər. Qlobal mərkəzlərdən idarə olunan jurnalistlər, ictimai təşkuilatlar, psixoloqların əli ilə "Erkən evliliyə qarşı mübarizə" adı altında aparılan və milli ailə sisteminin dağıdılmasına hesablanmış əməliyyat müvəffəqiyyətlə başa çatmaq üzrədir.

Erkən evlilik faciə deyil, bunu minillərin təcrübəsində görmüşük, amma erkən fahişəlik faciədir və fəlakətdir- bunu da son illərdə daha aydın görürük. Erkən evlilik dediyimiz yaşlar (16-17) dünyanın əksər ölkələrində (hətta dünyaya demonkratiya ixrac edən ABŞ-da da) rəsmi evlənmə yaşıdır. İnsanı Yaradanın ona hansı yaşda ata, ana olmaq qabiliyyəti verdiyini elm də təsdiq edir, biz də bilirik. Amma bəziləri çıxıb deyir ki, xeyr, Yaradan da səhv edir, elm də, biz hamıdan ağıllıyıq. Biz nə deyiriksə, elə etməlisiniz.

Erkən evlilikdən əvvəl erkən fahişəliyə qarşı mübarizə aparmaq lazımdır. Uzun illərdir ki, qeyri-hökumət təşkilatlarının mənəvi mövzularda həyata keçirdikləri layihələri izləyirəmhamısı "qadın azadlığı", "məişət zorakılığı", "erkən evliliyə qarşı mübarizə", "gender bərabərliyi" adı altında gedir.

Ancaq hələ də erkən fahişəliyə qarşı bir layihə həyata keçirən görməmişəm. Halbuki, azyaşlı qızların cinsi istismarı, qadın alveri obyektinə çevrilməsi haqda faktların sayı hesabı yoxdur. Fahişəxanalarda 13-14 yaşlı qızların pul müqabilində bədənlərini satdığı haqda mediada və sosial şəbəkələrlə mütamadi olaraq məlumatlar yayılır. İnternetdə hətta azyaşlı və yeniyetmə qızlar açıq şəkildə bədənlərini satışa qoyurlar, lakin buna reaksiya yoxdur. Amma nənəsi, anası 16 yaşda ailə qurub xoşbəxt ömür sürmüş bir qızın özü 17 yaşda ailə qurmaq istəyəndə bir qrup kütlə düşür ortalığa ki, vay qoymayın, qanun pozulmuş, dəhşətli cinayət baş vermişdir. Lakin elə həmin qız 16 yaşında oteldə ərəblərlə kollektiv cinsi münasibətdə tutularkən nə bu kütlə narahat olur, nə də qanun pozulur. Dəhşətin fərqindəsinizmi?

Bəli, qızların zorla ərə verilməsi düzgün deyil və buna qarşı mübarizə aparılmalıdır. Lakin 17 yaşını keçmiş, fiziki və psixoloji cəhətdən evlənməyə, valideyn olmağa hazır olan, öz istəyi ilə ailə qurmaq istəyən insanı hansı əsasla bundan məhrum etmək olar? Bu 18 yaş senzi hansı bioloji qanuna, hansı məntiqə, hansı ədalətə əsaslanır? Heç bir cavab yoxdur, ola da bilməz.

Faktiki olaraq erkən evliliyə qarşı mübarizə adı altında gənclərin mümkün qədər gec evlənməsi təbliğ olunur, hətta açıq deyilir ki, heç evlənmək lazım deyil. Bu təbliğatın nəticəsidir ki, evlilik halları kəskin azalıb, boşanmalar isə kəskin artıb. Bunun nəticəsidir ki, ölkədə orta evlənmə yaşı 25-dən 30-a qalxıb. Bu o deməkdir ki, artıq 40-45 yaşda da ailə quranlar çoxdur ki, orta rəqəm 30 çıxır.

İş o yerə gəlib ki, 18-20 yaşda gənclərin evlənməsinə belə bu "abrazavonski" zombilər pis baxırlar. Ümumdünya Səhiyyə Təşkilatı qızların ideal evlənmə yaşının 18-20, oğlanlarda isə 20-22 yaş olduğunu bəyan edir. Amma elm də, bioloji qanunlar da, insanın instruksiyası da boş şeydir. Əsas qlobal mənəvi terrorun aparılmasıdır. Ona görə də, gənclərin "təhsil və karyera" adı altında mümkün qədər gec (30-35 yaşda) evlənməsinin təşviqi, "qadın azadlığı" adı altında boşanmaların təbliğat kampaniyası, maşallah, nəhəng miqyasda davam edir. Artıq 50 faizə çatmış boşanmalarla dünya liderinə çevrilmişik. Dünyanın ən möhkəm ailə institutu cəmi 20-30 ildə ən dağılmış ailə institutuna döndərilmişdir.

Abortlar üzrə dünya liderlərindən biriyik. Son illərdə uşaq doğumu kəskin azalıb. Cinsi azlıqların sayı sürətlə çoxalır. "Öz cinsimi hələ təyin etməmişəm" deyən yeniyetmələr meydana gəlir. Xəyanət halları, namus cinayətləri sürətlə artır. Əxlaqsızlıq getdikcə kütləviləşir. Kriminal ünsürlər artır. Mənəvi deqradasiya kulminasiyaya çatır. Beləliklə, bioloji qanunlar da pozulur, insanın təməl hüquqları da, mənəvi dəyərlər də. Kütləvi informasiya və təbliğat vasitələri ilə tam bir satanizm ideologiyası yeridilir. Qlobal psixotron terror davam edir. Müasirlik adı altında qlobal şeytani mərkəzlərdən sizə qarşı mənəvi və bioloji təcavüz prosesi aparılır. Təslim olmayın. Özünüzü bu terrordan qoruyun. İmkan olsa öz xalqınızı da.

# Fransada neonasizm hakimiyyətin əsas silahına çevrilir

Avropanın bəzi bölgələrində irqçilik, neonasizm, islamofobiya Amerika Birləşmiş Ştatlarında baş verən rüsvayçı hadisələrdən də dəhşətli vəziyyətə yüksəlib. Niderland, Almaniya, Fransa kimi ölkələrdə müsəlmanlar təqib olunur, küçələrdə döyülür, təhqir olunur, müəyyən hallarda həbs olunaraq ironiya ilə qarşılanan ittihamlarla azadlıqdan məhrum edilirlər. Birmənalı şəkil də demək olar ki, Fransada islamofobiya və antisemitizm daha fəlakətli və amansız xarakter alıb. Bunun da səbəbi Makron hakimiyyətinin açıq formada müsəlmanlara və miqrantlara qarşı təqib və təzyiq siyasətini aparmasıdır. Çoxsaylı misallar göstərmək olar ki, küçələrdə müsəlmanlar, eləcə də miqrantlar yerli əhali tərəfindən döyülüb, təhqir edilib, lakin hüquq-mühafizə orqanları heç bir hüquqi tədbir görməyib. Hətta elə hallar olub ki, müsəlmanlar polisin gözü qarşısında təhqirlərə məruz qalıb, ancaq asayiş keşikçisi baş verənləri laqeydliklə izləyib. İddialara görə, müsəlmanlara qarşı hücumlar mərkəzi ofisi Berlində yerləşən Milli Sosialist Alman Fəhlə Partiyasının Fransa nümayəndəliyinin əməkdaşları həyata keçirirlər. Nəzərə almaq lazımdır ki, bugünkü Almaniyada faşizm tədricən inkişaf etməkdədir. Hətta hərəkatının "səmərəli" fəaliyyət göstərməsi Almaniyanın dövlət büdcəsindən faşizm dərnəklərinə milyardlarla dollar maliyyə vəsaitləri də ayrılır. Fransa dövləti və xalqı ikinci dünya müharibəsində faşizmdən əziyyət çəksə də, bugünkü Makron hakimiyyəti öz siyasi maraqları xatirinə tarixi faciələrə etinasız yanaşır, faşizm dərnəklərinin ölkə ərazisində millətçi fransızların dəstəyi ilə inkişaf etdirilməsinə dəstək göstərir. Nəzərə almaq lazımdır ki, neonasizm İkinci Dünya Müharibəsindən sonra ekstremist, millətçi təşkilatları birləşdirən, milli sosializmə proqram xarakterli münasibətdə yaxın olan və ya özlərini Milli Sosialist Alman Fəhlə Partiyasının (NSDAP) davamçıları elan edən hərəkatdır. Həmçinin qeyd olunur ki, neonasizm ideoloqları nasizm ideologiyasını belə əsaslandırmağa və bərpa etməyə çalışırlar. Hərəkatın ideoloji əsası bəzi hallarda antisemitizm, islamofobiya, irqçilik və ağların üstünlüyü nəzəriyyəsinə əsaslanır.












## Fransa faşizmin inkişaf etdirilməsinə niyə maraq göstərir?

O fikri vurğulamaq yerinə düşərdi ki, bəzi neonasizm ultrasağçılığın bir növü hesab edilir. Neonasistlər öz ideologiyalarından nifrət təşviq etmək və azlıqlara hücum etmək, bəzi hallarda isə faşist bir dövlət qurmaq üçün istifadə etmək arzusundadırlar. Bu, qlobal bir ideologiyadır və çoxlu ölkələrdə nümayəndəlik edən təşkilatları var. Eyni zamanda, neonasizm nasist doktrinasındakı ultramilliyətçilik, irqçilik, ksenofobiya, eyblizm, homofobiya, antiqaraçıçılıq, antisemitizm, antikommunizm və Dördünü Reyxin təsis edilməsi kimi elementləri özünə götürür. Yeni neonasizm bəşəri varlıq üçün təhlükə mənbəyidir. Fransa dövlətinin bu ideologiyadan istifadə etməsi demokratik, sivil dünya xalqlarına fəlakət gətirə bilər. Daha doğrusu, Fransanın Makron hakimiyyəti neonasizmin təbliğinə və ölkədə əsas ideologiya olmasına cəhdlər göstərir. Müəlmanların açıq şəkildə təqib olunması Fransanın hakimiyyətinin vəhşi bir rejim olduğunu təsdiqləyir. Həm də nəzərə almaq lazımdır ki, 2004-cü ildə Fransa ticarət mərkəzlərində, təhsil ocaqlarında. Dövlət tədbirlərində dini simvolları təqdim etmək və qadınların hicab geyinməsini qadağan edən qərar imzalayıb. Polis bu qərarı əsas gətirərək müsəlman qadınlarına qarşı açıq hörmətsizlik göstərirlər. Makronun əli dəyənəkli terrorçulara xas geyimli polisləri qadınları kafe və restoranlarda, küçə və meydanlarda saxlayıb, əyinlərində hicab, üzlərində niqabın çıxarılmasını tələb edirlər. Tələbi yerinə yetirməyən müsəlman qadınları polislər tərəfindən söyülür, polis maşınlarına oturdularaq zindanlara aparılır. Cərimələr tətbiq edildikdən sonra qadınlar sərbəst buraxılır. Bu baxımdan demək olar ki, müsəlmanlar üçün Fransa dövləti bir zindana çevrilib. Rəsmi məlumatlara görə, 2024-cü il də və 2025-ci ilin son altı ayına görə müsəlmanların rəhbərlik etdiyi 42 min 36 müəssisə dövlət tərəfindən cərimələnib, bəzilərinin isə, o cümlədən 11234 müəssisə bağlanıb. Müsəlmanların qurduqları dükanlarda, istehsal müəssisələrindən 134 milyon 248 min avro məbləğində vəsait müsadirə edilib. "Cage international" nəşrində dərc olunmuş "Fransa milli inkişafı" "İslamofobiya" adlı hesabatda qeyd edilir ki, immiqrasiya haqqında qanunun yekun layihəsinə Respublikaçılar və Milli Birlik partiyalarının - sağçıların və ultrasağçıların tələb etdikləri islahatlar daxildir. Milli Birlik partiyasının sabiq rəhbəri Marin Le Pen immiqrasiya qanununu onun hərəkatının ideoloji qələbəsi kimi qiymətləndirdi. Çünki qanunda milli fikirlər üstünlük təşkil edir. O, bunu ifrat sağçıların qazandıqları siyasi nəticə kimi qəbul edir. Qanunun qəbulundan sonra bir neçə nazir istefa verdi. Nəticədə, Makron hakimiyyəti ağır tənəzzülə üzləşdi. Əhali küçələrə çıxaraq Makronu və onun bacarıqsız komandasını istefaya çağırdılar. Lakin Makron faşist təfəkkürünə malik "hitlerçi" olduğu üçün aksiyaları da Hitlerin qəddarlığı formasında dağıtdı. Artıq fransızlar Makronun qəddar və vəhşi bir "hitlerçi" olduğunu anladıqlarından küçələrə çıxıb, etiraz aksiyaları keçirməkdən çəkinirlər. Dərk edirlər ki, açıq şəkildə etirazlara qalmaları onların, həyatları bahasına başa gələ bilər. Ona görə də dərnəklər yaradaraq gizli şəkildə Makrona qarşı mübarizə aparırlar. Hesab edirlər ki, məqam yetişəcəyi təqdirdə Fransa xalqı ayağa qalxacaq və faşizmin ölkədə əsas dayağı hesab olunan Makronun tarixin arxivinə göndərməyə nail olacaq.

## Fransa sərhədlərindən kənarda amansız cinayətlər törədir

Fransa Afrikada çoxlu sayda soyqırımı törədib və bu gün də Makronun göstərişi ilə ordu Yeni Kaledoniya, Polineziya, Korsika, Mayot adası və digər müstəmləkə altında saxladığı ərazilərdə vəhşiliklərini davam etdirir. Yerli əhali Fransanın müstəmləkəsinə qarşı geniş və qətiyyətli mübarizə aparır. Yeni Kaledoniyada əhali Fransaya qarşı mübarizəsində ciddi irəliləyişlərə nail olublar. 2020-ci ildə Yeni Kaledoniya öz müstəqilliyini elan etmək üçün növbəti referendum keçirib. Referendum iştirakçıları müstəqilliyin leyhinə səs verib, amma Fransa onu tanımayıb. İşgəncə üsulları ilə Makron hakimiyyəti Yeni Kaledoniya əhalisinin azadlıq mübarizəsini məhv etməyə çalışır.

Qeyd edək ki, Yeni Kaledoniya Fransanın Sakit okeanda yerləşən xüsusi inzibati-ərazi qurumu - müstəmləkəsidir. Sakit okeanın cənub-qərb hissəsində, Melaneziyada eyniadlı böyük bir ada və bir qrup kiçik ada ilə təmsil olunur. Cənub-qərbdə Avstraliyanın iqtisadi zonası, şimalda Vanuatu, cənub-şərqdə Fici ilə həmsərhəddir. Bu dövlət 1853-cü ildən Fransanın tabeliyində yaşayır. Əhalisi 270 nəfərdir. Burada Fransa hökumətini Ali Komissar təmsil edir, icra hakimiyyətini yerli hökumət həyata keçirir.

Fransa ordusunun ərazilərdən çıxarılması və strukturların ləğv edilməsi tələbi ilə Yeni Kaledoniyada əhalisi 5 ildən çoxdur ki, etiraz aksiyaları keçirirlər. Aksiyalar zamanı Fransa ordusu əhalini güllələbaran edib, həbslər həyata keçirərək yüzlərlə insanı türmələrə salıb. Yeni Kaledoniya administrasiyasının yaydığı məlumata görə, son 5 il ərzində keçirlən aksiyalar zamanı Fransa ordusu tərəfindən 103 nəfər öldürülüb, 7456 nəfər saxlanılaraq həbsxanalara atılıb. Bu azmış kimi Fransa hakimiyyəti Yeni Kaledoniya əhalisinin maraqlarına zidd olan irticaçı qərar qəbul edib. Beləki, Yeni Kaledoniyada on ildən artıq yaşayan şəxslərə seçkilərdə səs vermək imkanı verir. Bu o deməkdir ki, Fransanın ucqar ərazilərindən müəyyən şirnikləndirici vədlərlə yeni Kaledoniyaya köçürülən on minlərlə fransız ərazilərdə keçirilən seçkilərdə və referendumlarda səs vermək hüququ əldə edəcəklər. 1998-ci il Noumea Müqaviləsinə görə, seçicilər siyahısında olan vətəndaşlar və onların uşaqları səsvermə hüququna malikdir.

## Fransa hakimiyyətinin qəsbkar siyasətinin sonu olacaq

Korsika əhalisi də Fransanın müstəmləkəsinə qarşı qətiyyətli mübarizə aparır. Keçirilən referendumun nəticələrinə görə, əhalinin 89, 7 faizi müstəqilliyin tərəfdarıdır. Fransa hakimiyyəti isə referendumun nəticələrini tanımaq istəmir

Sorğu analitikləri Fransanın ümumi əhalisinin 53 faizinin adanın muxtariyyətinə "hə" dediyini və bu nisbətin 1989-cu ildə 18 faiz olduğu vaxtdan bəri demək olar ki, dörd dəfə artdığını vurğulayır. Digər tərəfdən, Fransanın ən yoxsul bölgəsi olan Korsika adasının əhalisi uzun müddətdir ki, siyasi məhbuslara, o cümlədən Kolonnanın tərəfdarlarına amnistiya, Korsika dilinə rəsmi statusun, Korsikada yalnız ada sakinlərinin mülk sahibi olmasına icazə verilməsi və Fransa Konstitusiyasında Korsika üçün xüsusi yerin ayrılması tələblərinin heç biri indiyə qədər rəsmi Paris tərəfindən yerinə yetirilməyib. Bütün bu kimi qanan zidd addımlar və fəaliyyət Korsika əhalisini ayağa qalxmağa və müstəqillik arzularını gerçəkləşdirməyə vadar edir. Təbii ki, mübarizə davam edəcəyi təqdirdə Korsika müstəqilliyinə nail olacaq. Eləcə də Mayot adası da müstəqil dövlət quruculuğunu reallaşdırmağı bacaracaq. Çünki ada əhalisi Fransa müstəmləkəçiliyinə qarşı daha qətiyyətli görünür. Artıq Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi Avropa İttifaqının Mayot adası üzərində suverenliyini tanıyıb. Fransa isə beynəlxalq hüquqa hörmət göstərməyərək özünün müstəmləkəçilik siyasətindən əl çəkmir.

Əminliklə demək olar ki, Fransa hakimiyyətinin qəsbkar siyasətinin sonu olacaq. Yeni azadlıq uğrunda mübarizə aparan xalqların tələblərini yerinə yetirəcək. Bununla da xalqlar əsarətdən xilas olacaq və bayraqları Fransanın bayrağı ilə yanaşı Birləşmiş Millətlər Təşkilatının və digər nüfuzlu beynəlxalq təşkilatların önündə dalğalanacaq.

***İLHAM ƏLİYEV***

# "Ala xəstəliyi": vitiliqo nədir, necə yaranır?



***Vitiliqo dəridə solğun ağ ləkələrin müşahidə edildiyi bir xəstəlikdir. Bu, normal insanların hamısının dərsində olan bir piqmentin- melanin piqmentinin çatışmazlığından qaynaqlanır. Vitiliqo bədənin müxtəlif yerlərində ola bilər, lakin daha çox üz, boyun və əllərdə müşahidə edilir. Vitiloqolu dəri günəş yanıqlarına daha həssasdır, buna görə də günəşlə təmasda olarkən bu nahiyələrə əlavə qayğı göstərmək və günəşdən qoruyucu vasitələrdən istifadə etmək vacibdir.***

El arasında "ala xəstəliyi" adı verilən vitiliqonun yaranmasına səbəb olan melanin piqmenti normal insanlarda melanositlər adlanan dəri hüceyrələri tərəfindən istehsal olunur və dərimizin rəngini o verir. Vitiliqo olan insanların dərisində melanin istehsal etmək üçün kifayət qədər melanosit hüceyrəsi yoxdur. Bu, dəridə və ya saç diblərində ağ ləkələrin görünməsinə səbəb olur. Melaninin məhz həmin bölgələrdə əskikliyi ilə bağlı tibb elmi heç bir əsaslandırma edə bilmir.

Vitiliqonun ən çox yarandığı yerlər ağızətrafı və gözətrafı, barmaqlar və biləklər, qoltuqaltılar, qasıq nahiyəsi, cinsi orqanlar, ağız içərisi olur. Bəzən vitiliqo saç follikullarının yerləşdiyi yerlərdə, məsələn, baş dərisində də inkişaf edə bilər. Melanin çatışmazlığı vitiliqo olan bölgədəki saçları ağ və ya boz rəngə çevirə bilər.Vitiliqo adətən əvvəlcə dəridə solğun ləkə kimi başlayır və tədricən həmin hissə tamamilə ağarır.





Vitiliqo dəridə quruluq yaratmır, lakin bəzən ağarmış hissələrdə qaşınma ola bilər. Vitiliqonun simptomları və inkişafı da insandan insana dəyişir. Bəzi insanlarda yalnız bir neçə kiçik ağ ləkə, digərlərində isə daha böyük ağ ləkələr əmələ gəlir. Dərinin vitiliqodan nə qədər zərər görəcəyini təxmin etmək üçün bu gün tibb heç bir yol göstərə bilmir.



Vitiliqo ləkələri qalıcıdır. Vitiliqonun 2 əsas növü var - qeyri-seqmental və seqmental vitiliqo. Nadir hallarda vitiliqo bütün bədənə yayılır. Bu vəziyyət ümumi və ya tam vitiliqo adlanır. Qeyri-seqmental vitiliqoda simptomlar ümumiyyətlə vücudunuzun hər iki tərəfində - sağ və sol tərəflərdə simmetrik ağ ləkələr kimi görünür. Qeyri-seqmental vitiliqo, vitiliqonun ən çox yayılmış növüdür, vitiliqolu hər 10 nəfərdən 9-da bu növə rast gəlinir. Seqmental vitiliqoda ağ ləkələr bədənin yalnız bir tərəfində müşahidə edilir. Seqmental vitiliqoya uşaqlarda daha çox rast gəlinsə də, qeyri seqmental daha çox böyüklərdə olur.

Qeyri-seqmental vitiliqonun immun sistemi ilə əlaqəli bir vəziyyət olduğu düşünülür. İmmunitet sistemi düzgün işləməyəndə sistem viruslar kimi yad hüceyrələrə hücum etmək əvəzinə, bədənin sağlam hüceyrələrinə və toxumalarına hücum edir. Əgər sizdə qeyri-seqmental vitiliqo varsa, immunitet sisteminiz melanositləri, melanin istehsal edən dəri hüceyrələrini məhv edir. Vitiliqo hipertiroidizm (qalxanvari vəzinin həddindən artıq işləməsi) kimi digər xəstəliklərlə də əlaqələndirilir, lakin vitiliqolu hər kəsə də bu diqnoz qoyulmur.

Əgər ailənin digər üzvlərində vitiliqo varsa qeyri-seqmental vitiliqonun inkişaf riski daha yüksək ola bilər. Həmçinin valideynlərdən birində anemiya, immun problemi varsa bu növ vitiliqo da gözlənilən-dir. Vitiliqo bəzən stressdən, zədədən sonra da əmələ gələ bilər. Məsələn, ağır doğuş prosesindən, ciddi günəş yanığı və ya başqa bir dəri zədələnməsindən, müəyyən kimyəvi maddələrə məruz qalmaqdan sonra da vitiliqo yarana bilər.

Əgər vitiliqo sizi narahat edirsə, həkimə müraciət edin. Vitiliqonun səbəb olduğu dəridəki ağ ləkələr qalıcıdır, lakin onların görünüşünü nisbətən soldurmaq üçün müalicə variantları var. Steroid kremlər bəzi piqmentləri bərpa etmək üçün dəridə istifadə edilə bilər, lakin uzun müddətli istifadə dərinin incəlməsinə səbəb ola bilər. Bundan əlavə fototerapiya (işıq terapiyası) da müalicə üsulu kimi istifadə edilə bilər. Müalicə dərinizin rəngini bərpa etməyə kömək etsə də, bu adətən uzun sürmür. Müalicə xəstəliyin yayılmasının qarşısını ala bilməz, ləkələri nisbətən görünməz edir, lakin sonradan həmin ləkələr yenidən görünür.

Vitiliqolu insanlar dəridə melaninin olmaması səbəbindən günəşə qarşı daha həssas olurlar. Mümkün olduğu qədər günəşlə birbaşa təmasdan qaçınmalı, günəş yanığının qarşısını almaq üçün örtülü geyimlərdən, günəş kremindən istifadə etməlidirlər. Vitiliqo həmçinin müalicə edilməzsə və ya qorunmazsa gözün orta təbəqəsinin iltihabı və qismən eşitmə itkisi kimi problemlər də yarada bilər. Vitiliqo infeksion xəstəlik deyil və insandan insana keçə bilməz. Cəmiyyət bu barədə məlumatlı olmadığı üçün vitiliqolu insanlara qarşı bir stiqma formalaşıb, onlarla ünsiyyət, təmas təhlükəli hesab edilir. Birmənalı olaraq vitiliqo yoluxucu deyil və təmas, gigiyenik əşyalarla başqasına keçmə ehtimalı sıfıra bərabərdir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

# "İnkişaf perspektivləri ilə bağlı gözləntilər əsasən müsbətdir"

"Azərbaycan turizmi ilə bağlı Dövlət Turizm Agentliyinin 2023-2026-cı illər üzrə turizm strategiyası mövcuddur. Bu strategiyada sənayenin inkişafı, gəlmə turizmi və həmçinin daxili turizmlə bağlı əsas istiqamətlər qeyd olunub. Dövlət tərəfindən istənilən sahə üçün ilk növbədə sənayenin qurulması və dayanıqlı olması prioritet hesab olunur. Daha sonra isə bu sənayedə fəaliyyət göstərən şirkətlər, qurumlar və müəssisələr sosial və iqtisadi baxımdan öz fəaliyyətlərini həyata keçirərək sahəyə dəstək göstərir və xidmət təklif edirlər". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Kənan Hənifəyev deyib.

Kənan Hənifəyev sözlərinə belə davam edib: "Sənayenin beş il ərzində inkişaf perspektivləri ilə bağlı gözləntilər əsasən müsbətdir. Hər ilin nəticəsinə əsasən növbəti mövsüm üçün hədəflər artırılır, statistik göstəricilər yüksəlir. Bu istiqamətdə həm Dövlət Turizm Agentliyi (DTA), həm də özəl sektor səmərəli şəkildə əməkdaşlıq edir. Əlbəttə, dünyada baş verə biləcək geosiyasi dəyişikliklər və qlobal istiləşmə ilə bağlı nüanslar da nəzərə alınır və qiymətləndirilir. Ümid edirik ki, turizm



sənayesi insanların istirahəti üçün lazımi xidmətləri göstərməkdə davam edəcək.

Ölkəmizdə yay turizmi ənənəvi olaraq yüksək templə inkişaf edir. Yerli turistlər regionlara daha çox səfər edir, xarici turistlər isə paytaxtımıza və digər səfalı şəhər və kəndlərimizə üstünlük verirlər. Yay mövsümündə region hotellərində təxminən 80 faiz doluluq müşahidə edilir və hər büdcəyə uyğun tur məhsulları və otel təklifləri mövcuddur. Yay mövsümündə xüsusilə Qarabağ istiqamətinə yerli turistlərin marağı böyükdür. Bununla yanaşı, digər bölgələrimizə - təbiəti və füsunkar mənzərələri ilə seçilən dilbər guşələrə də turist axını proqnozlaşdırılır. Son illərdə alternativ turizm növləri də daha aktual hal alıb və turistlər tərəfindən praktik şəkildə istifadə olunmağa başlanılıb. Dağ yürüşləri və kənd, yaşıl turizm istiqamətləri xüsusilə gənc səyahətsevərlərin marağını cəlb edir. Əsasən cənub, şimal və şimal-qərb bölgələrinə səfərlər təşkil olunur.

Yay mövsümündə üzləşilən əsas çətinliklərdən biri regionlara aparan yolların təmir işlərinin məhz bu mövsümə təsadüf etməsidir. Bu da həm turistlər, həm də nəqliyyat sistemi üçün çətinliklər yaradır. Eyni zamanda regionlarda xidmət sahəsində peşəkar personal çatışmazlığı hələ də aktual problem olaraq qalır. Bütün bu çətinliklərə baxmayaraq, bu ilin yay mövsümünə ölkə turizm sənayesinin təxminən 80%-i hazır vəziyyətdədir".

***Ayşən Vəli***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Endirimli" satış, yoxsa ölümcül təhlükə?

## Qida tədqiqatçısı iri marketlərdəki insan həyatı üçün təhlükəli nöqsanlar barədə danışdı



**"İri marketlərdə tez-tez belə hallarla qarşılaşırıq. Banan qaralır, pomidor yumşalır, balıq məhsullarının son istifadə tarixi yaxınlaşır və qiymət endirilir. Bu hallar bəzən qida israfının qarşısını almaq baxımından müsbət qiymətləndirilsə də, bütün hallarda təhlükəsiz deyil". Bu sözləri SİA-ya açıqlamasında Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, marketdə bananlar qaralıb, 50% endirimlə satılır. Bu hal görünüş baxımından pis görünsə də, banan hələ də istehlak üçün yararlı ola bilər. Təbii yetişmə prosesi nəticəsində qaralmış meyvələr, məsələn banan, avokado çox zaman təhlükəli olmur. Əgər bu məhsullar düzgün saxlanılıbsa və kiflənməyibsə, təhlükə yaratmır.**

Amma pomidor, xiyar kimi məhsullar çürüməyə başlayıbsa və ya pis qoxu verirsə, endirimli satılması qida təhlükəsizliyi prinsiplərinə ziddir: "Çünki bu növ tərəvəzlər mikrobioloji çirklənməyə daha açıqdır və orqanizmdə zəhərlənməyə səbəb ola bilər.Balıq məhsulları isə ayrı bir problemdir. Son istifadə tarixinə yaxın endirimli satış təhlükəlidir. Praktikada dondurulmuş balıq paketlərinin üzərində bitmə tarixi "bu gün" yazılıb və 70% endirimlə satılır. Belə halda deyə bilərəm ki, əgər bu məhsullar soyuq zəncir pozulmadan saxlanılıbsa, bu gün axşama qədər istifadə oluna bilər. Ancaq bu zəncir pozulubsa, yəni məhsul bir dəfə əridilib sonra yenidən dondurulubsa, ciddi mikroorqanizm çirklənməsi riski var. Bu, salmonella və ya listeria kimi bakteriyalarla zəhərlənməyə gətirib çıxara bilər.

İstehlakçı olaraq ən əsas vəzifələrimizdən biri etiketləri yoxlamaq və oxumaqdır. Son istifadə tarixi ilə yanaşı istehsal tarixi və saxlama şərtlərinə diqqət etməliyik. Pis qoxulu, yapışqanlı, kifli məhsul endirimli olsa da qətiyyən alınmamalıdır. Əgər açıq-aşkar xarab məhsul satışdadırsa, bu barədə market rəhbərliyinə bildirmək lazımdır. Əgər məhəl qoymazsa, AQTA-nın 1003 qaynar xəttinə məlumat verməlisiniz. Hətta şəkil və ya video çəkin, sosial şəbəkələrdə paylaşın. Bu hal ictimai qınaq yaradır və məsuliyyət hissini artırır.

Endirimli satış yalnız təhlükəsiz və nəzarətli şəraitdə edilərsə, həm israfın qarşısını alar, həm də vətəndaşa xeyirdir. Amma xarab məhsulların ucuz satılması vətəndaşın sağlamlığına birbaşa təhdiddir və qanunla qadağandır".

***Ziya Hikmətoğlu***

# Asiyada istiləşmə sürətlənir - dünya üçün təhlükə qapıdadır...




Qlobal istiləşmə təhlükəsi hər gün artmaqdadır. Ümumdünya Meteorologiya Təşkilatının (WMO) yeni hesabatına görə, Asiya qitəsi qlobal orta göstəricidən iki dəfə sürətlə istiləşir. Heç bir zəifləmə əlaməti göstərməyən bu istiləşmə tempi bütün regionda həyat və dolanışıq vasitələri üçün dağıdıcı nəticələrə gətirib çıxarır.

İyunun 23-də ÜMT-nin Baş katibi Seleste Saulo bildirib ki, ekstremal hava artıq qəbuledilməz dərəcədə yüksək fəsadlar törədir. Təşkilatın hesabatında Asiyanın böyük quru kütləsi səbəbindən qlobal orta göstəricidən iki dəfə daha sürətlə istiləşdiyi, temperaturun dəniz üzərində olduğundan yüksək səviyyəyə çatdığı bildirilir.

## ELAN

"Təmir-Tikinti Az NY" QSC-nin 2024-cü il üçün maliyyə hesabatı.

İcarədən 60 000 AZN daxil olmuşdur. Cəmiyyətin xərclərinə daxildir: amortizasiya xərcləri 1 342,93 AZN, əmək haqqı və bununla bağlı xərclər 13 668,85 AZN, əmək haqqı 10 318,60 AZN, sosial sığorta3%-566,66 AZN, icbari tibbi sığorta 2%-446,68 QAZN, işsizlikdən sığorta 0,5%-111,70 AZN, sosial sığorta 22%- 2 225,21 AZN, bank xərcləri 275,51 AZN, torpaq vergisi 163,80 AZN, təmir xərcləri 2 685,87 AZN, audit rəyi 500,0 AZN, arxiv idarəsi 459,22 AZN, səhmlərin saxlanması xərci 84,75 AZN, xəsarət almaya görə müavinət 948,75 AZN, cəmi: 20 129,68 AZN, mənfəət 39 870,32 AZN, 75%-li güzəştli mənfəət- 10 204,77 AZN, mənfəət vergisi 20%- 2 040,95 AZN, xalis mənfəət - 37 829,37 AZN. Hər bir səhm üzrə düşən dividentin məbləği 3,00 AZN.

# Gələn həftə Azərbaycanda sosial müavinətlər və təqaüdlər artırılacaq




***Gələn həftə Azərbaycanda sosial müavinətlər və təqaüdlər artırılacaq. SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı Vüqar Bayramov parlamentin növbədənkənar sessiyasının dünənki plenar iclasında deyib. Onun sözlərinə görə, artımlar 1,1 milyon vətəndaşı əhatə edəcək və Azərbaycanda sosial təminat sisteminin daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən işlərin tərkib hissəsidir:***

"Üç milyon vətəndaşı əhatə edən yeni sosial paket 1,1 milyon vətəndaşın pensiyalarında, minimum əməkhaqqı məbləğinin yüksəldilməsi nəticəsində 700 mindən çox vətəndaşımızın maaşlarında, eləcə də sosial müavinət və təqaüdlərdə artımlarla reallaşır. Yeni artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və dinamika bu il də davam edəcək. 2025-ci ilki artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq. Bu isə o deməkdir ki, yalnız 2020-ci ildən sonra Azərbaycan Prezidentinin göstərişi ilə reallaşan paketlərə 8,5 milyard manat əlavə vəsait ayrılır".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**